# B Ə X T İ Y A R N A M Ə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## YAZILI DASTAN ABİDƏSİ
## «BƏXTİYARNAMƏ»

«Bəxtiyarnamə» mövzusu Şərq xalqları ədəbiyyatında geniş yayılmış, ənənəvi mövzulardan biridir. Bu mövzuda həm şifahi xalq ədəbiyyatında, həm də yazılı ədəbiyyatda bir çox əsərlər meydana gəlmişdir. İlkin olaraq pəhləvi dilində «Bəxtiyarnamə» dastanı yaranıb ki, bu əsəri fars dilinə Şəmsəddin Məhəmməd adlı mütərcim tərcümə etmişdir. Dastanın süjeti əsasında isə XV əsrdə yaşamış Pənahi təxəllüslü bir şair «Bəxtiyarnamə» poemasını yazaraq Qaraqoyunlu hökmdarı Cahanşah Həqiqiyə ithaf etmişdir.

Pənahinin «Bəxtiyarnamə»si hələ o zaman geniş yayılaraq Şərqdə ərəb, daha sonralar Avropada isə ingilis, fransız, alman, eləcə də rus və gürcü dillərinə tərcümə edilmişdir.

XVI əsr Azərbaycan şairi Fədai də bu ənənəvi mövzuya müraciət edərək «Bəxtiyarnamə» poemasını yazmışdır. Həmin əsəri XX əsrin 40-cı illərinin sonunda Cənubi Azərbaycanda olmuş tanınmış tədqiqatçı alim, jurnalist Qulam Məmmədli əldə etmiş və 1957-ci ildə Bakıda nəşr etdirmişdir. Fədai bu mövzunun əsas süjet xəttini saxlamaqla yeni şəkildə işləyərək orijinal bir əsər yaratmışdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu qədim mövzu əsasında yazılı ədəbiyyatda ayrı-ayrı əsərlər yaranmaqla bərabər, müxtəlif şərq xalqlarının ədəbiyyatında da bu mövzuda dastanlar formalaşıb meydana gəlmişdir ki, katiblər tərəfindən yazıya alınmış nüsxələrin bəziləri bizə gəlib çatmışdır.

Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xəzinəsində "Bəxtiyarnamə" adlı yazılı dastan abidəsinin iki nüsxəsi saxlanılır. Bunlardan birincisi olan M-12 şifrli "Bəxtiyarnamə" dastanı fars dilindədir. Əlyazmanın paleoqrafik xüsusiyyətləri belədir: həcmi- 40 vərəq; ölçüsü – 13,5x18,5 sm; cildi – dəri; xətti- nəstəliqdir. Abidə əlyazma kitabının $39^{b}$-$79^{a}$ vərəqlərinə köçürülmüşdür. Mətnin sonundakı katib kolofonunda köçürülmə tarixi olmasa da, əvvəldə eyni xətlə köçürülmüş əlyazma mətninin tarixinə (h.1088-ci il) əsaslansaq, abidənin XVII əsrdə (m.1677-ci il) köçürüldüyünü deyə bilərik. Bu tarixi həm də əlyazmanın kağızındakı "foolshap" (təlxək təsviri, Hollandiya) və dairələr üzərində tac (İtaliya) təsvirli filiqranlar bir daha təsdiq edir. Adını çəkdiyimiz filiqranlı kağızlar əsasən XVII əsrdə istehsal olunmuşdur.

Nəşrə hazırlanmış B-4901 şifrəli ikinci əlyazma nüsxəsi isə Azərbaycan-türk dilindədir. Əlyazma 46 vərəqdən ibarət olub, ölçüsü 17,5x22 sm; xətti nəstəliq–şikəstədir. Mətnində bəzi katib qüsurlarını nəzərə almasaq, demək olar ki, dastan aydın xətlə yazılıb. Cildi tünd qəhvəyi rəngli dəri, sətirlərin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

sayı müxtəlif olub, başlıqlar qırmızı, mətn isə qara mürəkkəblə köçürülmüşdür. Əlyazmanın sonundakı kolofonda dastanın katib Nəsib ibn Əli tərəfindən köçürüldüyü qeyd olunmuşdur. O, dastanı hicri 1293(m.1876)-cü ildə yazıya almışdır. Harada köçürüldüyü qeyd olunmasa da, dastanın dil xüsusiyyətlərinə, əsasən də dodaq saitlərinin geniş şəkildə işlənməsi, onun Azərbaycan-türk dilinin Şərq dialekt qrupuna aid olduğunu deməyə əsas verir. Dastanda Azərbaycan ərazisinə aid toponimlərdən yalnız "Şirvan" sözünün iki yerdə işlənməsi bu fikri bir daha təsdiqləyir.

"Bəxtiyarnamə" Azərbaycan dastanlarının milliləşmiş dastanlar qrupuna aiddir. "Кitabi-Dədə Qorqud", "Кoroğlu", "Aşıq Qərib", "Əsli və Кərəm" və s. milli dastanlarımızla yanaşı, mövzu və süjeti qonşu Şərq xalqları ədəbiyyatından Azərbaycan xalqının hafizəsinə köçmüş "Leyli və Məcnun", "Yusif və Züleyxa", "Seyfəlmüluk", "Xavərnamə" kimi "Bəxtiyarnamə" dastanı da xalq yaradıcılığımızın, dilimizin xüsusiyyətlərini əxz eləyərək formalaşmışdır.

"Bəxtiyarnamə" quruluşuna görə həm nəsr, həm də nəzmlə yazılmış və Bəxtiyarın dilindən söylənən on hekayədən ibarət bir dastandır. Dastanı məzmun və süjet xəttinə görə Fədainin "Bəxtiyarnamə" poemasından fərqləndirən cəhətlər çox azdır. Obrazların adı, hadislərin oxşar şəkildə cərəyan etməsi kimi uyğunluğu görmək olar.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dastanda Fədainin poemasında olduğu kimi Azadəbəxt şah taxt-tacından əl çəkməyə məcbur olub övrəti ilə saraydan qaçır. Gəlib bir bulaq üstə çıxırlar. Burada Bəxtiyar dünyaya gəlir. Ancaq onlar uşağı qiymətli bir parçaya büküb, bir az da yanında zinət əşyaları saxlayıb, orada qoyub getməyə məcbur olurlar. Sonra təsadüfən bulaq üstə gəlib çıxan Ziyad adlı hərami onu tapıb oğulluğa götürür. O da böyüyüb atasının dəstəsinə qoşulur və həramilik edir. Bir gün padşahın adamları həramiləri ələ keçirir və Bəxtiyarı gətirib padşaha təhvil verirlər. Bəxtiyarın ədəb-ərkanı padşahın çox xoşuna gəlir və sarayın bütün ixtiyarını ona tapşırır. Bəxtiyarın da ağır, məşəqqətli günləri bundan sonra başlanır.

Xain vəzirlər Bəxtiyarın sarayda böyük nüfuz qazandığını görüb ona böhtan atırlar. Beləliklə, şahın əmri ilə onu qətlə yetirmək istəyirlər. Ancaq hər dəfə bir vəzir şikayət edib Bəxtiyarın ölümünə fərman verdirmək istədikdə, o, bir hekayə danışmaqla həm vaxt qazanmağa, həm də şahı fikrindən yayındırmağa çalışır. Nəhayət, dastan nikbin sonluqla bitir. Onuncu vəzir böhtan atıb Bəxtiyarı öldürtmək istəyərkən Ziyad hərami gəlib çıxır və Bəxtiyarı körpə ikən haradan tapdığını söylədikdən sonra məlum olur ki, Bəxtiyar onun öz oğludur. Azadəbəxt şah isə bundan sonra taxt-tacını ona təhvil verir və xain vəzirləri cəzalandırır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Fədainin “Bəxtiyarnamə” poeması ilə bu dastan arasındakı oxşarlığın olması onu deməyə əsas verir ki, klassik ədəbi-bədii əsərlərin yaranmasında ilkin mənbə rolunu oynamış xalq ədəbiyyatı nümunələri nəsildən-nəsilə keçərək insanların yaddaşında yaşamış və tarixin ayrı-ayrı dövrlərində yazıya köçürülməklə bu günümüzə kimi gəlib çatmışdır.

“Bəxtiyarnamə” dastanı da belə xalq ədəbiyyatı nümunələrindəndir ki, yazıya köçürüldüyü dövrün canlı danışıq dili xüsusiyyətlərini özündə əks etdirməklə dil tariximizin bir mərhələsini öyrənmək üçün müəyyən qədər material verir.

“Bəxtiyarnamə” dastanı nağıl və dastanlarımıza xas olan dil-üslub xüsusiyyətləri, canlı danışıqdan gələn söz və ifadələri, şifahi nitqdə baş verən fonetik dəyişmələri ilə daha çox maraq doğurur.

XIX əsrdə yazıya köçürülən “Bəxtiyarnamə” dastanının dili orta əsrlərdə köçürülmüş yazılı abidələr kimi arxaik dil xüsusiyyətlərilə o qədər də zəngin olmasa da, dastan yarandığı ərazinin, dövrün canlı danışığına xas xüsusiyyətlərilə diqqəti cəlb edir. Qeyd etmək lazımdır ki, dastanda hər dəfə bir vəzirin gəlişi və Bəxtiyarın padşaha cavabı başlıq kimi fars dilində verilmişdir. Məsələn, “Amədəni-vəziri-dovvom”, “Cəvabi-dadəni-Bəxtiyar be padşah” kimi başlıqların fars dilində işlənməsini onunla



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

əlaqələndirmək olar ki, dastanın ilkin mənbələri fars dilində olmuş və sonralar xalq ədəbiyyatının gözəl bilicisi olan mütərcim tərəfindən tərcümə olunarkən başlıqlar digər əsərlərin tərcüməsində olduğu kimi saxlanılmışdır.

Fədainin "Bəxtiyarnamə" poemasından fərqli olaraq, burada ərəb-fars söz və ifadələri olduqca az işlənib ki, bu da abidənin xalq ədəbiyyatı nümunəsi olması ilə bağlıdır. Dastanın lüğət tərkibini əsasən Azərbaycan-türk dilinin öz sözləri təşkil edir. "Bəxtiyarnamə"nin dili ilə müasir ədəbi dil arasında ortaya çıxan fərqli cəhətləri nəzərdən keçirsək bəzi sözlərin artıq bugünkü dilimizdə işlək olmadığını müşahidə edirik. Bəziləri isə müasir ədəbi dilimizdə işlənməsə də, ya dialekt və şivələrdə qalmış, ya da digər türk dillərində işlənməkdədir.

Dastanda Azərbaycan-türk sözləri və ifadələrinin müasir ədəbi dilimizə görə arxaikləşən, çox az hallarda işlənənlərindən bəziləri bunlardır: Köy, qarındaş, savaş, yağı, yüz, altun, ərrə, bən, ol, qamu, kibi, xaçan, yavuq, tışra, ilən, imdi, varmaq, varə-varə, bulmaq, irmək, qılmaq, urmaq, yol başlamaq, istirahət olmaq, ehtiyat gərəgin, taleyi dönmək, yol eyləmək, dükan kəsmək və s.

Dastanın dilini zənginləşdirən faktorlardan biri buradakı frazeologizmlərdir: Yürəgim sakin olmaz; atalıq məhəbbəti yapışdı; qaçmağa yol başladı; səfər çəkmək; cəhənnəmə vasil olmaq; qəza işin işlər.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Frazeologizmlərə atalar sözü, aforizm, hikmətli söz şəklində də rast gəlirik. Məsələn: Səbr ilə olur şəkkər qamuşdan; Mürüvvətsiz kişidə olmaz iman.

"Кitabi-Dədə Qorqud" dastanında olduğu kimi burada da atalar sözləri və sair aforizmlərin çoxu nəzm şəklində işlənmişdir:

Təhəmmül eyləmək Allah işidir,
Təcil eyləmək şeytan işidir.

Qazar hər kimsə özgə qəsdinə çah,
Özi axir düşər ol çahə nagah.

Bəladan olmaq istərsən səlamət,
Əmanət, kimsəyə sən qılma möhnət.

Bir söz məşhurdur əndərzəmanə,
Yəman hər kim sanır, uğrar yəmanə.

Yəmana uğramaz kim olsa yaxşı,
Yəmanun yaxşıdan az ola yaxşı.
Dilin döndərmə sən hərgiz yəmanə,
Dil ucundan düşər çox kim ziyanə.

Rəvayətlə bağlı olan ifadələr:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qarun onun yanında gəda idi.- Qarun həddən-ziyadə varlı bir şəxs olmuşdur ki, burada bu ifadənin işlənməsilə kiminsə çox varlı, imkanlı adam olduğuna işarə olunur.

Həlqə geyib mənim tək ac qalsun – Bu ifadədə isə kiməsə qarğış, nifrət, ümumiyyətlə mənfi münasibət bildirilir.

"Bəxtiyarnamə" dastanında sinonim sözlər eyni mənanı bildirməklə paralelizm cərgəsini yaradır. Bu paralelizmlər tərkibinə görə əsasən türk mənşəli və alınma sözlərdən ibarətdir. Bildiyimiz kimi alınma sözlərin dilə gəlməsi müxtəlif səbəblər üzündən ola bilər. Əgər alınma sözün dildə qarşılığı yoxdursa, o daxil olduğu dilin sözlərinə qarışıb bir növ "vətəndaşlıq hüququ qazanır". Düzdür, bu çox zaman belə olmur. Alınma sözə ehtiyac olmasa da, o daxil olduğu dildəki qarşılığı sıxışdırıb çıxarır və arxaizmlər meydana gəlir. Məsələn, sərxoş - əsrük; cənnət –uçmaq; cəhənnəm – tamu; xəstə – sayru; ağıl – us; insan – kişi və s. "Bəxtiyarnamə" dastanında da vaxtilə paralelizm cərgəsini yaratmış həm türk mənşəli sözlər, həm də alınma sözlərin müasir ədəbi dilimizdə biri daha çox işlənir, digərinin isə işlənməsi məhdudlaşıb, bəziləri hətta arxaizmlərə çevrilmişdir. Məsələn: şovhər – ər; kəbutər – gögərçin; banu – xatun; çah – quyu; ləşkər – sipah – qoşun; tiğ – qılınc.

Dastanın lüğət tərkibinə daxil olan sözlər onun leksik cəhətdən daha da zəngin olduğunu göstərir. Burada işlənmiş musiqi alətləri, parça, zinət əşyalarından bəzilərinin adını



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qeyd edək: gərənay, kus, nəqarə, atlas, ziba, almas, qumaş, ləl, cəvahir, yaqut, zümrüd, firuzə və s.

Xalq ədəbiyyətını yazılı ədəbiyyatdan fərqləndirən başlıca əlamətlərdən bir çoxunu – danışıqdakı yığcamlılığı, sözlərin tələffüzü zamanı baş verən fonetik dəyişmələri və qrammatik qaydaların pozulması kimi halları "Bəxtiyarnamə" dastanında görmək olar. Bu, abidənin canlı danışıq dili ilə bağlı olması və xalq arasında uzun müddətdən bəri formalaşması haqqında bir daha aydın təsəvvür yaradır.

Sözlərin tələffüzü zamanı baş verən səs düşümü, ya yeni səslə-
rin əlavə olunması, ya da ismin hal sistemindəki qeyri-sabitlik, yəni ismin müəyyən hal şəkilçisi tələb olunan yerdə başqa hal şəkilçisinin işlənməsi ümumxalq danışıq dilinin başlıca əlamətlərindəndir. Şifahi nitq üçün xarakterik olan bu xüsusiyyətlər də dastanda var. Məsələn, adlıq halın mənaca təsirlik halı əvəz etməsi:

Sənin sözün Dadbinə deməzəm.

Yönlük halın təsirlik halı əvəz etməsi:

Bazara gəzərkən nəzəri oğlanun hüsnünü, cəmalını görüb ayağına düşdü; Xacə Həsən durub dəryanın kənarına gəzüb bir cəmiət qəvvas gördü.

Çıxışlıq halın təsirlik halı əvəz etməsi:

Xacə Həsən oğlunun boynundan qucaqladı.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dastanda nəzərə çarpan, müasir ədəbi dilimizlə müqayisədə qrammatik qaydanın pozulması hallarından biri – miqdar və qeyri-müəyyən miqdar saylarından sonra ismin cəm şəkilçisinin işlənməsidir. Məsələn: Ol iki dürləri pünhan etmişdi; Bir neçə həramilər ona fərmanbərdar idi.

Saylardan sonra ismin cəm şəkilçisini qəbul etməsi ümumxalq danışıq dilinin əlamətidir ki, "Bəxtiyarnamə"də bu hala tez-tez rast gəlirik.

Ümumiyyətlə, "Bəxtiyarnamə" dastanının mətnini nəzərdən keçirdikcə bu xalq ədəbiyyatı nümunəsini həm dilçilik, həm də ədəbiyyatımızın qaynaqları, eyni zamanda Şərq xalqlarının dilində formalaşmış variantları ilə müqayisəli şəkildə geniş tədqiq etməyə ehtiyac duyulur. Qeyd edək ki, dastanın yayılma arealı çox böyük bir ərazini, yəni Ərəbistan yarımadasından başlayaraq İndoneziya adalarına qədər olan bir regionu əhatə edir. Şərq xalqlarının ümumi folklor abidəsi olan "Bəxtiyarnamə" dastanının Azərbaycan-türk dilindəki nüsxəsini nəşrə hazırlayarkən katib tərəfindən yazıya köçürüldüyü yerin, dövrün danışıq xüsusiyyətlərini olduğu kimi müasir qrafikada əks etdirməyə çalışmışıq. Burada dastanla bağlı bəzi məsələlərə qısaca da olsa aydınlıq gətirməyə səy göstərilsə də, elə güman edirik ki, abidə mütəxəssislərin diqqətini cəlb edəcək və mətni üzərində müxtəlif aspektdən araşdırmalar davam etdiriləcəkdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əmma raviyani-əxbar və naqilani-asari-ruzigar belə rəvayət etmişlər: İsfəhan şəhrində bir padişah var idi. Adına Azadabəxt deyəllərdi. Dövlətdə və səltənətdə və əqildə ona bərabər padişah yox idi. Və ləşkərinün hesabın özündən qeyri kimsə bilməzdi. Və hər gün onun məclisində yeddi padişahi-adil əglənürdi və neçə padişahzadə anın sağında və solunda durar idi və neçə vəziri var idi ki, hökmündə və əqlində o vəzirlərün bərabəri aləmdə yox idi. Əmma Azadabəxt padşahun ləşkərünün bir sepəhsaları var idi ki, heç onun bərabəri aləmdə yox idi. O sepəhsalar bu ləşkəri götürüb bir qeyr vilayətə getmişdi və çox vilayətlər almışdı. Əmma sepəhsalarun bir qızı var idi, əqildə və kəmalda və cəmalda mənəndi yox idi.

Nəzm:
Pəripeykər, qəmərtələt, güləndam,
Kəməndi-zülf damlar mürğinə ram.
Qaşı yay, kiprigi ox, gözü pürnaz,
Cəmali-şöləsi bir şux şəhnaz.
Dişi dürr, ləbləri gülbərgi-xəndan,
İşi-gücü,boyu sərvi-xuraman.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yüzi gül, saçı sünbül, ağzı qönçə,
Həzaran aşiqi saldı rəncə.
Nigari-nazənini xurşidsima,
Baxanda yüz könül eylərdi yəğma.
Əcəb sərvü sənubər, bazi-cani,
Onun vəsfi şəm etmiş cəhani.

Qəzara, bir gün padşahun həvayi-şikar başına düşüb, tədarük təmam eyləyüb, qamu əşrəf və əyanı götürüb neçə gün …[1] ovına getdi. Və o nazənünün də həvayi-həvəs başına düşüb, şəhri xali görüb bir neçə pərizülflər ilə rəvanə oldılar. Xuraman bir dağun damındəgəşt eyləyüb, bir tərəfə çəməni-gülzarə və bülbülə və gülə təmaşa edüb, seyrü səfayə məşqul olmuşdı. Qəzara, padşah ovdan qayıdub, güzarı o nazənün seyrgahinə düşüb, əqlü huşu başdan gedüb, aşiqi-giriftar olub, o nazənün eşqdən atəşi cismini pərvanə yandurub səda eylədi ki, aya, bu aftabi-cəhantab hansı bağun gülüdir və hansı çəmənün sünbülüdür. Əyan və əşrəflər ərz eylədilər ki, ey qibleyi-aləm, bu nuri-aftab o pəhləvanun qızıdur ki, sən onı ləşkərə sepəhsalar eyləmişsən. Padşah atından aşağa düşüb əmr eylədi ki, qızı gətürün. Vəzirlər və ərkani-dövlətlər padşahun xidmətinə baş qoyub ərz eylədilər ki, ey padşahi-aləm, əlbəttə, sənün muradun hasil olur, nəhayət, səbr məsləhətdür və sənün

[1] Сюз дцшцб.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ədalətinə nöqsanidir, səbr eylə. Sepəhsalara hali edüb, əqdi-nigah edüb sənün xidmətinə gətürək. Və çün padşahun eşq əqlü huşini başından aparmışdı, tabi-tabanı yox idi.

Nəzm:

Bəli, çün xaneyi-eşq ola viran,
Dəxi qalmaz kişidə dinü iman.

Bu sözlərə baxmayub bitəklif o qızı təsərrüf eylədi. Təmam əyan və əşrəfləri bu feli-bəd sitəmdən azürdəxatir oldılar. Bu xəbər sepəhsalara yetüşdi. Cəhani-rouşən onun gözünə tar oldı. Naçar, naəlac qalub səbrdən qeyri çarə bilməyüb, padşaha bir namə yazub bu məzmun ilə ki, ey padşahi-aləm, bən səndən razı oldum. Cənabi-əqdəsi-ilahi səndən razı olsun. Sənün kimi padşah mən kəmtərin qızın qəbul eyləyüb, bəndəyi-damadlığı qəbul eylədin. Bu sözdən padşah təsənnixatir olub, onun üçün xələt və ənam göndərdi. Əmma sepəhsalar həmişə fikr-xəyal eylədi və fürsəti-ixtiyar tapmazdı. Qəzara, bir gün fürsət tapub sepəhsalarun əşrəf-əyanları və müqərrəbləri yanına gəldilər. Zar-zar ağladı: Ey müqərrəblər və əyanlar, hansı mürüvvətə rəvadır ki, bənim qızımı padşah zülm ilə təsərrüf eyləyə, bən xəlq arasında sərzənişlü qalam. Əgər siz mədətyarlıq eyləməsüz özümi həlak edərəm. Ruzi-qiyamətdə, ərəsat divanında, cənab rəbbül ələmin hüzurunda sizdən xüsumət edərəm. Müqərrəblər və əyanlar dedilər ki, ey sepəhsalar,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

biz də bu feli-bədsitəmdən, padşahdan bizar olmuşuq. Əlimizdən gələni biz də onun haqqında eylərük.

Nəzm:

Bihəqq xaliqə danayi davər,
Sənünlə cəhd eylədüm mən, ey bəradər.
Fəna eyləyim Azadabəxti,
Sənə təslim edəlüm tacü təxti.

Biz sənə cani-dildən deyürük: Sənün təki sepəhsalara belə pislik eyləyən, gör ki bizə neylər. And içüb, beyət eylədilər. Təmam yerbəyerdən əsbab-əsləhə cəm edüb padşahun üstə şəbxun eylədilər və padşahın keşigində olan kəsləri qətlə yetürdilər. Padşah xəbərdar olub gördü ki, bir kəsdən mədədkar olmadı. Müqərrəblər hərəmlərə xəbər eyləyib çox cəvahirdən və ləldən və almasdan və firuzədən və zəbərcəddən götürüb, qapudan qaçmağa yol bulmuyub, qələnün əsarundan kəmənd atub qaçmağa yol başladılar. Pərişan, müztərrülhal qaçdılar. Ta sübh olunca bir bulağın üstə yetüşdilər.

**Nəzm:**

Əcəb türfə çəməndir ol bu mənzil,
Övrət işi ki şaha oldı müşkil.

Dedi: Nə ola bulağun üstə bir qədər istirahət olaq. Barihəmldən ürəgim pərişandır. Padşah onun xətiri üçün orada



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

əgləndi. Nagəh bu övrətün orada bir oğlı vücudə gəldi. Nə oğlan, bəlkə bir mahtəban ki, onun yüzinin şövqindən zəmin münəvvər olub, fələk dürcdən bu oğlanun tamaşasına çıxa və çün padşah hərəmi vəqtü vədəni bilüb bir dəst libas özi ilə mühibbə götürmüşdi ki, atlas və zərbəft oğlana geydürüb bir qədər əmizdirdi. Padşah dedi ki, ey övrət, bizə ölmək vacib oldı, bu tifli necə edək? Xatun dedi ki, ey padşah, bu tifl işini pərvərdigarə buraxuruq, necə ki Musanın anası oğlun suya buraxdı, allaha tapşırdı. Biz də bu tifli burada qoyub pərvərdigarə rücu eylərük. Padşah öz bazubəndini açub tiflün qolına bağladı və bir qədər zər o tiflün yanında qoyub, özləri zar-giryan yola düşdilər.

Gecə və gündüz yol eyləyüb, gedüb bir müəzzəm şəhrə daxil oldular. O şəhrün padşahı xəbərdar olub, yüz ezaz ilə padşahı şəhrə daxil eylədilər. Ona hörmət və şəfqət eyləyüb öz təxtində əgləşdirdi. Əhvalından xəbərdar olub Azadə padşaha dedi: Qəm çəkmə son intiqam olardan aluram. Ondan eyş-işrətə məşğul oldular. Qırx gün və gecə ziyafət edüb Azadəbəxtə məhəbbət eylədilər. Qırx gündən sonra Azadəbəxtə çox ləşkər verüb öz şəhrinə rəvanə oldı. Sepəh-salar xəbərdar olub buyurdı. Ləşkər şəhrdən tışra çıxub Azadəbəxtün ləşkərinə bərabərə durdılar. İki tərəfdən kus, nəqarə cəng dögüb, dilavərlər meydanə girdilər.

**Nəzm:**

İki yandan yeridi çünki ləşkər,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Orada qopdı san qövqayi-məhşər.
Dögüşür iki yandan pəhləvanlar,
Kəsildi başları, tökildi qanlar.

Genə pərvərdigari-aləm Azadəbəxtə fürsət verüb, sepəhsaların ləşkərün basub, özün dutub dəstbəstə padşahun xidmətinə gətirdülər. Azadəbəxt onı öldürüb öz təxtində sultan oldı. Şad-hürrəm olub ləşkərin mürəxxəs eylədi. O padşah üçün çox töhfə və peşkəşlər göndərdi. Əmma padşah oğlı tərəfindən gecə və gündüz qəmnak idi. Çox növhə və zarlıq edirdi. Nə bilsün ki, qəzai-kirdgar necə olacaqdır.

## HEKAYƏT

Oğlandan belə rəvayət eyləyübdürlər ki, bir Ziyad adlu hərami var idi. Bir neçə həramilər ona fərmanbərdar idi. Həmişə ol kuhi-sərani gəzüb qafilə vurarlar idi. Qəzai-təala ol güzarları ol çəmənün üstə düşüb orada bir oğlan gördilər. Sanasan qibleyi-aftabdır, atlas və zibayə büküb getmişlər. Yanında bir qədər zər, nə atası var və nə anası var. Ziyad hərami o tövr aftabı tez qucağına götürüb pərvərdigarə şükr eylədi. Dedi: Ey yoldaşlar, bu zər sizün olsun, bu uşaq bə-nim. Onun üçün ki, bənim fərzəndim yoxdur. Bunı özimə fərzənd eyləyim. Yoldaşları qəbul eylədilər. Ziyad hərami



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

oğlanı qucağına götürüb evinə gəldi. Dedi: Ey övrət, cənab bari bizə oğlan verüb. Onı dayəyə verək, pərvəriş etsün və ona Xudadad ad qoydılar. Çün müddət aradan keçdi, oğlan yeddi yaşına gəldi. Rüxsari-şərifi misli-mahi-taban, sərvü xuraman kimi müzəyyən oldı. Ziyad hərami onı məktəbə qoydı. Çün əsli və nəsli pak idi. Zati-şərifində bir xələl yox idi. Bir neçə ildə elmi təmam eylədi. Bir fəsahət və bəlağət və mərifət və süxəndan oldı ki, rübi-məskunda bərabəri olmadı. Hər vəqt, hər qət ləbi-gövhərində bir ləfzə təkrar eylədi. Zəmanə əhli mütəhəyyir olurdı. Onun kəmalinə və ləfzi-şəkkərinə təhsin eylədilər və ona bərabər hünərmənd, dilir, mərdanə, xoşnəvis olmadı.

**Nəzm:**

Vəli hərçənd kimdə olsa xoş zat,
Yaman kimsə ilə qılsa mülaqat.
Onunla lütf olur həm təbiət,
Əşərr eylər ana ol xui-xislət.
Dəxi itürdi ol namusi, nami,
Bərhəm misli ziyadə ol hərami.

Əlqissə, oğlan bir neçə həramilərə qoşulub karvan yolun getdilər. Qəzara, şəhri-Kirmandan İsfahanə karvan gətürmüş iki əhli-karvan deyillər: Bu Ziyad həramünün mənzilidir. Bir neçə sərhənglər o karvanda var idi. Oları dağun ətəgində pünhan eylədilər. Karvan gəlüb həramilər mənzillərinə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yetdilər. Həramilər karvanda olan kişiləri təmam qol-qola bağladılar. Özləri xatircəm olub, qarətə məşğul oldılar. Bu tərəfindən pəhləvanlar həramilərün üstə tökülüb təmam qətlə yetürdilər. Ta gəlüb növbət oğlana yetüşdi. Кarvanda bir Xacə Həsən adlu adəm var idi. Gözi bu oğlanun cəmal rüxsarinə staşdi. Mütəhəyyir olub Xacə dedi: Ey oğlan, bu hüsni-cəmal ki, səndə var, əcəb degilmi belə həramilərə qoşulmuşsan. Məgər səndə ar-namus yoxdur? Oğlan dedi: Ey Xacə, bu işi atam mənə pərvəriş veribdir. Bənim bu işdə günahım yoxdur. Xacə dedi: Gəl tövbə eylə, səni ölümdən qurtarum. Oğlan o dəmdə kəlmeyi-tövbəni dilinə gətürdi. Əstəfürillah – dedi. Xacə ona xələt verüb, özinə oğul eylədi. Pəs ondan sonra gəlüb İsfəhanə yetüşdilər. Çox töhfə, peşkəşlər, ləl və cəvahir ona Xacə mühəyya eyləyüb, bir xonça içinə qoyub, oğlan ilə padşah xidmətinə gəldilər. Dua və səna yerinə yetürdilər. Padşahun nəzəri Xudadadun çəmali-afitabına sataşdı. Qanı cuşə gəlüb atalıq məhəbbəti yapuşdı. Valeh və heyran qalub abi-həsrət didəsindən rəvan oldı. Dedi: Ey Xacə, nə ola bu oğlanı mənə bağışlayasan. Xacə dedi: Ey qibleyi-aləm, təmam malım və əmlakım və baş ilə canım sana fəda olsun. Oğlanı padşaha bağışladı və çox təhsinlər eylədi. Pəs padşah oğlanı yanına çağırdı, dedi ki, adın nədir? Dedi: Adım Xudadaddır. Pəs padşah dedi ki, ey cəvan, sənin adın Bəxtiyar qoydum və ona çox izzət və hörmət eyləyib məclisi-pişi-xidmət eylədi. Pəs o oğlan bir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

surət ilə şərti-xidmət yerinə gətürdi ki, əyani-məclis təmam təhsinlər gətürüb ona hörmət eylədilər. Pəs padşah onda bir əql və kəmal gördü ki, təmam ləşkəri və rəiyyəti ona möhtac eylədi və həmişə özi ilə oturub göftügular edirdi. Bir müddət təmam külli ixtiyar xəzinəsin də ona təslim eylədi və qalan vəzirlər və əyanlar və əşrəflər Bəxtiyarun xidmətində durdılar. Deyillər: Əgər dövran, ruzigar belə keçə, bizim əhvalımız xərab olur. Əlqissə, padşahun bir xəlvətxanəsi var idi. Belə münəqqəş və müzəyyən və ətrafi-divarlarında surətlər nəqş olunmuş. Bir tərəfində Məcnun-Leyli və bir tərəfində Fərhad-Şirin və bir tərəfində Şeyx Sənan və bir tərəfində Aşıq Yaxşı. Əlqissə, bir tərh ilə münəqqəş olunmuşdı. Hər kimsə ki, ona təmaşa eylərdi əql-huşi başdan gedərdi. Mədhuş heyran qalurdı. Bəxtiyarun bəxti yar olmuyub, o xəlvətxanənün təmaşasına getdi və çox təmaşa eylədi, heyran qaldı.

**Nəzm:**

Fələk yar oldı, çün döndi dövlət,
Onı ol dəmdə dutdı xabi-qəflət.

Gəlüb yatdı. Fərraş xabə getdi. Gör imdi təqdiri-rəbbül aləmin nə qayrucaqdır. Hər vəqt hərəmə gəlüb ol xəlvətxanədə eyş-işrət və zovqü səfa eylərlər. Qəzara, ol gün hərəmxanəyə əmr eyləmiş, hərəm padşahı gəlüb o xəlvətxanəyə daxil olub, təmaşa eylərdi. Fərraş rahətdə bir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

oğlan görüb misli-mahtaban xabi-istirahətə məşğuldur. Xatun gəlüb oğlanı bidar edüb dedi ki, ey gülüzari-bağicənnət, ey bustani-İrəm, sənin bu məqamda muradın nədir? Bu göftügudə ikən nagah padşah daxili-xəlvətxanə olub buları göftügudə, bir yerdə gördi, qəzəbnak olub və xatun hərəm sarayına qaçdı. Padşah buyurdı. Qullar gəlüb Bəxtiyarın qolun dalına bağlayub ol qədər dögdilər ki, bihuş oldı. Ondan padşah əmr eylədi zindanə saldılar. Ondan rəvanə hərəm oldı. Ondan padşah əmr eylədi, ol mahliqanı istəyüb dedi ki, doğrı söylə, görüm günah səndədir və ya Bəxtiyardadur. Əgər doğrı deməsən səni bənd-bənd kəsərəm.

**Nəzm:**

Dedi xatun ki, ey şahi-cəhandar,
Olasan şad-xürrəm ta cəhan var.
Ziyadə olsun ol cah-cəlalun,
Fələkdən olmasun daim zəvalun.
Xudavənda, bənim yoxdur günahım,
Bu dəvidəyəm həqdir güvahım.
Onı mən bilmədim sandım ki, sənsən,
Ona saru təvəccöh eylədim mən.
Onun əli bana həm dəgməyübdür,
Bənimlə feli-bərhəm etməyübdür.
Əgər öldür, əgər qoy, ey şahənşah,
Dedim doğru sanasan, olgil agah.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Pəs padşah o nigarı gözdən saldı. Düşnam edüb ol gecə ta sübhədən fikrü xəyal ilən bidar qalub ta sübhi-rouşən oldı. Gəlüb divanxanədə təxti-zərnigar üzrə qərar tapdı. Ərkani-əşrəf və əyanı hazır qılub müqəddiməni onlara təqrir eylədi. Əyanlar, buna tədbir eyləmək gərək. Çün bədbəxtlər bu əhvaldan xəbərdar oldılar. Yerbəyerdən fəqan, fəryad qılub şikayət eylədilər ki, ey qibleyi-aləm, bu işi biz çoxdan bilürük, əmma cürət eyləməzdük ki, sana ərz eylüyək. Əlhəmdülillahü əl-minnətə bu gün özün gördün. Gərəkdir ki, ol bədbəxti bənd-bənd kəsüb odda yandırasın, ta cəhan xəlqinə ibrət ola. Ta sənün kibi padşaha xəyanət eyləməsünlər. Padşah qəzəbnak olub əmr eylədi. Bəxtiyarı zindandan siyasət ilə padşahın xidmətinə gətürdülər. Təmam şəhr xəlqi xəbərdar olub, məclisə daxil oldılar. Padşah dedi: Ey bədbəxt, sənin kimi pəlidə əmək verdüm və qamu ərkan və əşrəflərdən səni bərgüzidə eylədüm. Bivəfa, əsli napak, inani-ixtiyarı sana verdüm ki, sən bana xəyanət eyliyəsən? Əmr eyləyim səni parə-parə eyləsünlər. Ta qiyamətədək cəhan əhli ibrət olunsun. Əmr eylədi cəllad gəlsün. Cəllad gəlüb əlində tiği-Misr Bəxtiyarun qolundan çəkdi.

## CƏVABİ-DADƏNİ-BƏXTİYAR PADŞAH RA

**Nəzm:**

Dedi pəs Bəxtiyar, ey şahi-aləm,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Başından sayeyi-həqq olmasun kəm,
Bu işdə yox günahım, bigünahəm,
Sana məhşər günində dadxahəm.
Bu müində mən olmamış agah,
Gəhi mənzildürür xəlvətgəhi şah.
Vəlakin, döndi bəndən bəxti-dövlət,
Nəsib oldı bana rüxi-məşəqqət.
Bitürdi tale bəxdim səgalə
Кi, məndən döndi, uğradım zəvalə.
Кəmal oldı zəval, iqbali-idbar,
Bəlavü möhnətə oldum giriftar.
Var imiş hər kəmalun bir zəvalı,
Nə şadlıqdır, onun yoxdur zəvalı.
Məgər belə imiş təqdiri-allah,
Əlimdən nə gəlür əhkamü lillah.

Ey qibleyi-aləm, bənim də ol xacə kimi taleim bərgəştə olub ki, möhnəti-bəlalərə düşdi. Mal və mülki və fərzəndi-əyali əlindən getdi. Ömrü olunca qəmdən qurtarmadı, axır həlak oldı. Padşah dedi: O xacə kimdir ki, belə bəlalərə düşdi. Onun əhvalın bəyan eylə!

## CƏVABİ-DADƏNİ-BƏXTİYAR PADŞAH RA

**Nəzm:**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dedi pəs Bəxtiyar, ey şahi-kişvər,
Müdam olsun sana dövlət müyəssər.
Ziyad olsun ki, iqbalü cəlalun,
Fələkdən olmasun daim zəvalun.
Zəcuri-hadisat, xun ikrah,
Pənahində səni saxlasun allah.

## HEKAYƏT

Dedi: Ey qibleyi-aləm, rəvayətdən eşitmişəm ki, bir xacə var idi. Bəğayət maldar idi. Sahibi-gənc, ləl, yaqut, zümrüd və firuzə və almas və qumaş hücrə-hücrə idi. Onun yanında Qarun gəda idi və çox kənizi və qulamı var idi. Həmişə özi də şəhrbəşəhr gəzərdi. Çün dövlət və bəxt ona yar idi. Hər mətai ki hər şəhrə aparar idi. Birə on intifa edirdi. Çün talei bənim kimi dönmişdi, fələk yar olmayub bir özgə xəyala düşdi ki, evimdə olan əşyayi sataram. Səfər çəkməkdən incimişəm. Bundan sonra istirahət olub əgləşürəm. Hər nə şey var idi təmam satub nəqd eylədi, buğda almağa düşdi. Nə qədər taxıl o şəhrdə və şəhrün ətrafında var idi alub, anbara vurdı. Könlində bu idi ki, ucuz almışam, bəha sataram. Əmma xacənin yoldaşı var idi. Ona çox nəsihət məqamında deyir ki, ey xacə, bu əməl yaxşı dögül. Bu il bəha olmıya. Ol əhməq mərdin çün talei dönmişdi. Qə-səm-yad eylədi: Allahi-əzim üş-Şanun zatına ki, bəha olmayınca



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

satmanam. Onun məqsudi hasil olmayub, qışın əvvəlində ol qədər yağış yağdı ki, su yerin yeddi qatına keçdi. Təmam anbar su ilə doldı. Anbarda olan taxıl təmam zay oldı. Əmma xacə bundan ol qədər xiffət çəkdi ki, sahibi-azar oldı, rəngi zəğfəranə döndi. Axirüləmr hər nə baqi olan əmvalı və əcnihi var idi, təmam və kəmal satub nəqd eylədi. Tazədən qumaş, mal almağa məşğul oldı. Genə səfər eylədi. Gəlüb bir gəmidə əgləşüb, dəryayə rəvan oldı. Gərək dövləti allah verə, səybifaidə nə hasil. Çün talei dönmüşdi. Qəzara, bir badi-müxalif əsüb bir tufan oldı ki, gəmi şikəst tapub hər nə qumaş mətai və kənizi və qulamı var idi dəryayə qərq olub, özi bir təxtə üstə kənarə çıxdı. Ömri təmam degildi. Oradan ahəstə-ahəstə ac və susuz yola düşdi. Nəhayət, bir əzim şəhrün kənarına yetüşdi. Bir yaxşı adam buna rast gəlüb bunı tanıdı. Çün onun ilə çox sövdə eyləmişdi. Ona hörmət eylədi və o da əhvalın məlum eylədi. Ona rəhmi gəlüb evinə gətirdi. Çox məhəbbət eylədi: Qəm çəkmə, səni özimə həmdəm eylərəm. Bir işə müqərrər eylərəm. Ondan sənə çox mayə hasil olur. Qəbul eylədi, onı xirmən üstə sərkar tikdi. Ənam, məvacib ona müşəxxəs eylədi. Ta gəlüb xirmən oldı, taxılı anbara tökdilər. Çün talei bərgəştə olmışdı. Səyi-bicadən nəf hasil olmadı. Bir fikri-batilə düşüb, xəyalinə gətürdi. Məbadə ki, xacə bənimlə pislik eyləyə, az verə bu taxıldan. Bir xeyli taxıl gizlərəm. Əgər bənim haqqımı versə və məni xoşnud eyləsə izhar edərəm. Əgər verməsə satub



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

özimə mayə eylərəm. Əlqissə, ol taxıldan bir yerə çox gizlədüb və çün məhsul təmam yetdi. Xacə özi izafə taxıl verüb və ona xələt verüb nəvazişlər eylədi. O mərdi-əhməq öz felindən peşman olub, qəzara, bu buğdanı pünhan edəndə bir şəxs onı bilmişdi. Gəlüb xacəyə buğdanı xəbər verdi və xacəni gözlədü ki, taxılın üstə gətürdi. Xacə buğdanı görüb qəzəbnak oldı. Dedi: Ey bidəyanət, sənə nə yamanluq eylədüm ki, mənə xəyanət eylədün. Ona siyasət eylədi. Əlində olan məqduri alub şəhrdən qovdı. Pəs ol bədbəxt zarü pərişan yola düşdi. Neçə gün ac və susuz gəlüb bir dəryanın kənarına yetüşdi. Bir neçə qəvvaslar orada var idi. Bu şəxsi tanıdılar. Onlar gəlüb təmam buna salam verdilər. İkram, hörmət eylədilər. Bu, sərgəştə felini bulara nəql eylədi. O qəvvaslar çün bunın əhvalından müttəle oldılar. Onlar bunın halına əfsus eylədilər. Deyillər: Ey xacə, bizim sənə layiq bir nəsnəmiz yoxdur. Nəhayət, sənün xatirin üçün dəryayə batub hər nə çıxsa sana ənam edərik. Təmam yerdən suya düşdilər. Beş danə dürri-qəltan çıxarub o şəxsin əlinə verdilər ki, apar buları sat, özinə mayə eylə. Dürləri götürüb onlara dua eylədi. Yola düşdi, gəlüb oğrılara rast gəldi. Çün talei dönmişdi. Xəyal eylədi ki, məbadə bunlar məni üryan eyləyələr. O, dürlərin üçün ağzına atdı. İki danəsin libasında gizlədi. Qəza işin işlər. Bir qədər yol bular ilən getdi. Nagah, birdən axsadı, dürlər ağzından düşdi. Oğrılar dürləri götürüb bunı dutdılar və buna yaxasandan



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

çıxart deyüb durdılar. Bu çox fəryad eylədi, qəbul etmədilər. Biri boğazundan dutub, biri ağzın axtardı. Dodaqların cırdılar. Təmam ağzı və dodağları para-para oldı. Bihuş olub özindən getdi. Oğrılar dürləri götürüb evlərinə gəldilər.

Xacə bir saətdən sonra huşə gəldi. Durub zar-pərşan yola düşdi. Gəlüb bir müəzzəm şəhrə daxil oldı. Bir neçə gün onda qaldı. Ol, iki dürləri pünhan etmişdi. Götürüb cövhərfüruşin yanına gəldi. Dürləri ona verdi. Cövhərfüruş gördi ki, bu dürlərün bəhayi-intihasın verə bilməz. Xəyal eylədi ki, bu bir fəqir biçarədür. Buna pul verincə pünhan eyləsəm yaxşıdır. Pəs fəryad eyləyüb bu fəqirin binagüşinə vurdı. Əqli başından gedüb bihuş oldı. Cəmi xəlq yığıldılar. Əhval sordılar. Cövhərfüruş dedi ki, neçə-neçə dürr ki bəndə var idi, ikisi oğırlanmışdı. Neçə gündür cüstücü eylərəm, çün bənim malım həlal idi. Oğrı özi gətürüb bənə satar eylədi. Tanıdım. Xəlq cəm olub o fəqir miskinə çox siyəsət eylədilər. Axirüləmr, o fəqiri o şəhrün padşahun yanına apardılar. Hali-müqəddiməni padşaha ərz eylədilər. Padşah ol çövhərfüruşin sözinə bavər eyləyüb əmr eylədi ki, bu biçarəni darə çəksünlər. Cəlladlar qolların dalına bağlayub, dar qabağına gətürdilər. Biçarə miskin hər tərəfə baxub bir mədədkar görməyüb ah çəkdi. Qəza riza verdi, əlqissə, əhli-şəhr təmaşaya gəldilər. Qəzara, ol qəvvaslar da o gündə şəhrə daxil oldılar. O biçarənün təmaşasına gəlüb onı tanıdılar. Əhvalı xəbər aldılar. Dürlərin müqəddəməsin təqrir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

eylədi. O qəvvaslar təmam fəryad eylədilər. Padşahun xidmətinə gəldilər. Müqəddəməni padşaha ərz etdilər. O, fəqiri öz hüzurinə istədi. O fəqirdən təmam əhvalın padşaha ərz eylədilər. Çün padşah bu haldan hali olub ol cövhərfüruşi ənvai-siyasət ilə öldürdi və onun xanimanun o biçarəyə təslim eylədilər və onı məclisinə sakin etdi. Ezaz-ikram eyləyüb, ta ki, gətürüb xəzinədar eylədi. Çün xəzinənün bir tərəfinün divarı hərəm divarına müttəsil idi.

Qəzara, bir gün talei bərgəştə gördi ki, xəzinə sanduqlarunun birinin kilidi əyilibdir. Bir daş götürüb kilidi vurdı. Divar surax olub hərəmxanə aşkar görindi. Ol biçarə ah-nalə çəküb fəryad eylədi. Dedi ki, əgər padşah xəbərdar olsa dəmar ruzgarımdan çıxarur.

**Nəzm:**

Genə ol bisəadət, dövləti kəm
Ki, qıldıq palçıq ilə suraxı möhkəm.

Möhkəm eyləyüb, özi qəmü ənduh fikrə batdı. Qəzara, padşahun bir qulı bunı bilüb, padşaha ərz eylədi ki, xəzinədən bir surax eyləyüb hərəmə təmaşa eylədi və bu sözdən padşah qəmnak olub, biçarəyə ənvai-siyasət eyləyüb dedi: Ey mərdi-napak, səni giramilərdən eylədüm və əyan, əşrəfin xəzinəsini sana tapşurdım. Əlhal, sən bana xəyanət eylədin. Əmr eylədi ki, ol biçarənün gözlərinə mil çəkün. Ol



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

biçarə fəryad-fəqan eyləyüb, canını cəhani-afərinə təslim eylədi.

Ol fəqirin halı bana timsaldır ki, heç günahı yoxdur. Əmma talei bərgəştə olub bu bəlayə düşdi.

Bu qissə təmam olunca axşam oldı. Padşah dedi ki, aparun Bəxtiyarı zindanə salun. Sabah ona bir siyasət eyləyüm ki, hər bir napakə tənbeh olsun. Aparub zindanə məhbus eylədilər. Ol gecə qalub, sübh rouşən oldı. Padşah əmr eylədi ki, Bəxtiyarı ənvai-siyasət ilə hazır eylədilər.

## AMƏDƏNİ-VƏZİRİ-DOVVOM

Padşahun bir vəziri var idi. Adına Bəhruzyar deyərlərdi. Gəlüb məqami-xidmətində durub dedi: Ey qibleyi-aləm, bizim namusumuzı bərbad eylədün. Bir həramzadəni özinə məhrəm eylədin, özin də rüsvayi-aləm oldın. Qədr-qiymətin zərrəcə qalmadı. Belə həramzadəni neçün öldürmürsən ki, zəmanə əhlinə ibrət ola. Sən padşahun hərəmi-möhtərəminə xəyanət eyləyüb. Ol qədər tənə sözlər dedilər ki, padşahun ruzi-rouşən gözünə tar oldı. Aciz qalub dedi: Ey pəlidi-rusiyah, səni bənim nan-nəməgim dutdi? Parə-parə eyləyüb imdi səni itlərə atsam yürəgim sakin olmaz.

## CƏVABİ-DADƏNİ-BƏXTİYAR BE PADŞAH



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Nəzm:**
Dedi pəs Bəxtiyar, ey sahibi-sər,
Həmişə dövlətün olsun müyəssər.
Müsəlləm sana tacü təxt, şahə,
Uzun etsün sənün ömrün alihə.
Nigin ola çün möhri-Süleyman,
Müti ola sana divani-insan
Кi, səbr eylər hər işdə aqil olan,
Vəli, səbr etməyən olur peşiman
Кi, səbr edən yetər axir muradə,
Qalur bisəbr sərgəştə aradə.
Əgər səbr eyləsəydi ol bəzirgan,
Neçün olurdı felindən peşiman.
Şitab eylədi, düşdi cüstücuyə,
İki oğlun birin atardı suyə.

Padşah dedi: Hansı bəzirgan idi? Oğlun neçün suya atdırdı? Təqrir eylə!

## HEКAYƏTİ-XACƏ HƏSƏN

Bəxtiyar dedi: Ey padşah, eşitmişəm rəvayətdən ki, bir kişi var idi. Adına Xacə Həsən deyərlər idi ki, çox mal-mülki varmış. Özi də əqlməndin, dana imiş. Bir gün çox qumaş, mətalar alub səfərə əzm eylədi. Gəlüb əzim bir şəhrə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yetüşdi. O şəhrdə bir əzim padşah var idi. Xacə Həsən ona çox töhfələr ki, yaqut və ləl və zümrüd və firuzə və almas və zərbaft və diba ola o padşah üçün peşkəşlər gətürdi. Məqami-səlamda durub dualar eylədi.

**Nəzm:**

Кi, şaha, dövlətün payəndə olsun,
Sana xaqani-aləm bəndə olsun.
Qabağında müdam iqbali-dövlət,
Rikabində həmişə fəthi-nüsrət.
Dəvam dövlətün olsun müxəlləd,
Bəqa səltənət qalsun müqəyyəd.
Həmişə və sənün mənkub, məhcur,
Pərişanxatir olsun zari-rəncur.

Zəcuri-hadisat zülmi-bədxah,
Pənahında səni saxlasun allah.
Bu növ eylədi mədh sətanlıq,
Şah ona qıldı lütfü mehribanlıq.

Padşah ona təzimlər eyləyib, bir yaxşı yerdə ona yer göstərüb, onı bir neçə gün özinə həmdən eylədi. Onun əqli-kəmalinə təhsinlər eylədi. Dedi: Sənə özimə vəzir eyldim. Və hər işin ixtiyarun ona verdi. Neçə il onda qaldı. Vəleykən, əhlü əyali və fərzəndləri qalmışdı, çox intizar çəkirdi. Bir gün bir qədər simü zər götürüb, bir namə yazub evinə göndərdi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu məzmun ilə ki: «Ey cani-əziza, bəndən əhval xəbər alasan, padşahi-adil xidmətində mükərrəm və müşərrəf olmuşuq. Gecə-gündüz bir saət yanından uzaq qoymaz və sizün əhvalınızdan xəbərdar degiləm. Əlbəttə, öz əhvalınızı bizə bildürün». Cəvabnaməçün Xacə Həsənün kağızı evinə yetüşdi. Cəvabnamə Xacə Həsənə yazub göndərdilər. Bu məzmun ilə ki, fərxəndə asar: «Bizim üçün qəm yoxdur, sənün fəraqindən qeyri. Biz çünki sənün əhvalını bildük. Çox xoşhal və xürrəm olduq. Əgər şəfqətün olsa, bizim əhvalımızı bilmək istəsən, əlhəmdülillah və əlminnətə, ol vəqt ki, sən səfərə gedəndə bu kəniz hamilə idi. Müjdə olsun sənə ki, bari-həml eylədim. Xudavəndi-aləm iki oğlan inayət eylədi. Münəccim də taleyin yoxladı, dedi: Biri padşahi-aləmdir olur və biri də vəziri-şah olur. Nəhayət, hər ikisi dəryayə qərq olur, genə nicat taparlar. O biri padşaha vəzir olurdı. Bəhanə düşər, çox möhnəti-qəm çəkər. Axiri genə xeyir olur. Ona dövlət yar olub, şah olur. Əlbəttə, sən bizləri genə gözdən salub şəfqət, mərhəmətin bizdən əksik eyləmə. Gələndən-gedəndən əhvalını bildir. Biz də xatircəm olaq». Bu kağız Xacə Həsənə yetəndə ona ruzi-rövşən oldı. Şad-xürrəm padşahın xidmətinə gəldi. Ərz eylədi, ey padşahi-aləm, nə olur ki, bu fəqirə şəfqət eyləyüb mürəxxəs eyləyəsən ki, çox arzuməndəm. Padşah rüxsət verməyüb, əlqissə, on il onda qaldı. Genə bir kağız evinə yazdı ki: «Arami-can, necə ki, Yəqub oğlının yüzinə həsrət qaldı, mən də sizün fəraqinizdən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

didəgüman, hali-pərişanəm. Hərçənd padşaha iltimas eylədüm, rüxsət bana vermədi, ey nuri-didələrim, ananızı da götürüb gələsiniz». Çün namə Xacə Həsənin evinə yetdi, təmam tədarük eyləyüb, övrət iki oğlun götürüb rəvanə oldılar.

Xacə Həsən həmişə intizar çəkərdi. Bir gün məclisdə, şah xidmətində ahi-həsrət çəkərdi. Didəsindən əşk rəvan oldı. Padşah çün bu halı görüb dedi: Ey Xacə, mükəddər olmağın nədəndir? Ərz eylədi ki, ey valai-gövhər müddəti-mədiddir və əhdi-bəiddir ki, arzuməndəm. Didari-fərzənd xatirimə düşdi. Abi-həsrət onunçün didələrimdən cari oldı. Padşahın Xacəyə rəhmi gəldi, dedi: Ya Xacə, əhd eylə ki, gedüb gələsən rüsxət verəm. Xacə Həsən qəsəm-yad eylədi. Padşah ona xələt, şəfqət edüb rüsxət verdi. Xacə rəvanə olub bir dəryanın kənarına yetüşdi. Gəmiçilər dedi ki, burada ehtiyat gərəg, anın çün ki, burada çox oğrılar olur. Xacə ol gecə neçə saət bidar qalub, ondan yuxusı gəlüb, həmyanı başı altına qoyub, qorxulu yuxıya getdi.

Gəl, xəbəri Xacə Həsənin övrətindən eşit və oğlanların götürüb yola düşdi. Neçə gün yol eyləyüb, bir gecə yarısında o dəryanun kənarinə getdilər. Övrət dedi: Ey nuri-didələrim, yuxaruda səs gəlür. Bən burada əglənüm, siz gedün gəmiçiləri görün. Məbadə gedələr, bir xəbərdar olun. Ol iki nuri-afitablar durub dəryanun kənarincə yola düşdilər. Çox qaranluq gecə idi. Ahəstə-ahəstə gəlüb Xacənün yanına



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yetişdilər. Xacə buların ayağunun səsindən hövlnak yuxudan qalxdı. Gördi başının üstə iki adam durub. Fəryad eylədi, gəmiçilər bidar olub, ol iki bürci-səadəti görüb dutdılar. Xacə Həsən dedi: Ey nabikar, bənim malımı oğurlamağa gəlmüsüz? Bu qədər bunlar ah-zar və fəqan eylədilər, fayda vermədi. Ol namərd, bimürüvvət ol iki növrəs cəvanları dəryayə atdırdı.

**Nəzm:**
Könüldə rəhm yox, o bimürüvvət,
Özi qıldı özinə zülmi-şiddət.
Mürüvvətsiz kişidə olmaz iman,
Olur felindən axir ol peşman.
Əlindən gəldügin gəl etmə zinhar,
Peşmanlıq çəkərdi axiri-kar.
Sana çün qalib olsa hirsi-şeytan,
Özin saxla, olursan çox peşman.

Vəleykin, allah təalanın inayəti onların üstə idi. Onlara nöqsan olmadı. Onlar bigünah idilər. Həqq-təala onları hifz eylədi. Hər biri bir təxtə üstə rast gəldi, yapuşdılar, əmma biri-birindən cüda düşdilər. Biçarə anası o gecə sübhədən ah-zar eylədi. Çün sübh rouşən oldı. Ağlıya-ağlıya gəlüb o gəmiçilərə və Xacə Həsənə yetüşdü. Əfğan eyləyüb dedi: Ey əzizlər, iki nuridəmi on ildir ki, can içində bəsləmişəm. Ata



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

onları görməyüb və onlar atasın görməyüb. Bir-birin cəmalinə arzu çəkirlərdi. Axirüləmr, atasının yanına aparurdım. Bu dəryanın kənarında bu gecə yarsu itürdüm – deyüb, fəğan eylədi. Xacə Həsən baxub övrətin tanıdı. Mədhuş olub yıxıldı, çün huşə gəldi.

**Nəzm:**

Dedi: Övrət, gər imdi neylədim mən,
Özim öz başıma kül eylədim mən.
Öz əlimlə çıxarmışam gözimi,
Eşit, övrət, bənim sən bu sözimi.

Çün övrət bu haldan xəbərdar oldı. Bir-birin qucaqladılar, ağladılar.

Gəl, xəbəri biçarə oğlanlara et. İkisi bir-birindən ayru düşdülər. Kiçik oğlanı dəryanın mövcü götürüb dəryayə atdı. Çün ixlasın həqqə bağlamışdı. Neçə qəvvas orada hazır idi. Bu oğlanı görüb xoşhal olub deyirlər: Biz burada gövhər üçün durmuşduq, nə gövhər ola, bundan artuq ola? Belə deyüb xəndə etdilər. Əmma böyük oğlanı mövc urub bir kənarə çıxdı.

Qəzara, o şəhrin padşahı təmam əyan, sipah ilə ova çıxmışdı. Gəlüb o dəryanın kənarinə yetdilər. Oğlana rast gəldilər. Təmaşa edüb gördilər ki, tənha, giryan olub. Əbri-neysan kimi əşk didələrindən rüxsarinə tökülmüş, əmma oğlan nə oğlan.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Nəzm:**

Mələksima bir xurşidi-ənvər,
Cəvani nazənini fərxəndə əxtər.
Gözi nərgis, yüzi gülbərgi-xəndan,
Xəcil olur hüsnündən mahi-taban.
Cəmalı dilfirib, qəddi şimşad,
Görən bir gəz olur qəmdən azad.

Padşahın əqli başından gedüb bu oğlana heyran oldı və buyurdı təmam ləşkər-əşrəf cəm oldılar. Dedi ki, ey əyanlar, bənim oğlum yoxdur. Çün var-dövlət və şan-şövkət bu oğlanın rüxsarində hüveydadur. Məsləhətdür ki, bu bənim oğlum olsun. Siz də şahid olun. Təmam əyan-əşrəf, sipah yerbəyerdən: Səmanən və etinaən- deyüb cani-dildən qəbul eylədilər. Padşah əmr eylədi ki, kus və nəqarə döyüb və oradan keçüb şəhrə daxil olub, təxtin oğlana təslim eylədi. Oğlan tac-təxt üstə qərar tapdı. Ərkani-dövlət və əyani-həzrət o oğlana fərmanbərdar oldılar.

Gəl, neçə kəlmə Xacə Həsəndən və övrətdən eşit ki, nalan və giryan çox ağladılar. Xacə dedi: Ey övrət, təqdirə tədbir yoxdur. Bəndə nə təqsir var, barı, durum dəryanın kənarların gəzim, bəlkə meyitlərin tapam və onlara kəfən eyləyim. Barı, bir oların yüzlərin görüm. Deyir ki, ölünün yüzi soyuq olur. Məgər bir az yürəgim sakin ola. Xacə Həsən durub dəryanun kənarına gəzüb bir cəmiyyəti-qəvvas gördi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məcmuyyəsi oturub, aralarında bir oğlan var, misli mahi-taban.

**Nəzm:**

Cəmalı sanasan xurşidi-ənvər,
Sözi şəkkər, boyı sərvi-sənubər.
Gözi nərgis, qaşı yay tiri-müjgan,
Dişi dürr, ləbləri ləli-Bədəxşan.
Rüxündə daneyi-xali-mişkin,
Görəndə can verir üşşaqi-miskin.

Xacə Həsən qəvvasların yanına gəldi. Bu oğlanun halını xəbər aldı. Qəvvaslar dedi: Bu oğlanmıdır? Xacə Həsən dedi: Əgər satarsuz alub bəhasın verürəm. Qəvvaslar satub, təslim eylədi. Xacə Həsən oğlanı gəmiyə qoyub rəvanə oldı. Dedi: Ey nuri-didə, bən səni qul almamışam, bəlkə özimə həmdən almışam. Oğlan giryan olub dedi: Ya Xacə, bən qul degiləm ki, satılam. Bənə çox ənduh və qüssə vermə ki, bən atamdan və anamdan ayru düşmüşəm. İki qardaş bizi dəryayə atdılar. Allah bizə yar və müin olub bəni saxladı. Xacə bu sözi eşitdi və bu sözdən gümanə düşdi. Genə xəyal eylədi ki, haçan olur dəryayə düşə, genə səlamət qala. Oğlanı götürüb övrətin yanına gəldi. Övrətin nəzəri oğlanun cəmalinə sataşdı. Nərə çəküb bihuş oldı, özindən getdi. Çün huşə gəldi, oğlanı qucluyub zar-zar ağladı. Dedi: Bu mənim kiçik oğlumdur. Xacə Həsən oğlunun boynundan qucağladı,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

şükri-Yəzdan eylədi, şad-xürrəm oldı. O biri oğlanın tərəfindən qəmnak oldı. Bəhər hal şükr eyləyüb dedi: Təqdiri-rəbbül aləmin belədir. Nə çarə var onu da pərvərdigari-aləmdən istərük. Xacə fərzəndü əyalını götürüb genə qayıtdı. Genə ol padşahın xidmətinə gəldi, iqrar eyləmişdi. Padşah genə ona məhəbbət eyləyüb, girami eylədi. Əmma Xacə Həsən çün oğlanı dana və əqlmənd görüb, şad olub, onunçün bir dükan açdı. Bir az müddət də çox intifa edüb simu zər hasil eylədi. Xacə Həsən şad olub, anınçün çox qü-maş, məta alub, əsbabi-ticarət mühəyya qılub səfərə göndərdi. Dedi: Ey fərzəndi-girami, hər şəhrə gedərsən, qardaşından əhval sorasan. Çün oğlan rəvanə şəhrbəşəhr gəzüb çox intifalar eyləyüb. Qəzara, güzarı ol şəhrə düşdü. Qardaşı onda padşah idi. Çox töhfə və təbərrük şeylər götürüb, padşahın xidmətinə gəlüb, həmdü sənalar eyləyüb.

**Nəzm:**

Dedi: Ey padaşhi-həfti-kövsər,
Pənahında səni saxlıya dəvvar.
Cəhan olsun muradınca müəyəssər,
Müti olsun sana xaqani-Qeysər.
Ziyadə rifətin, həm ömrin əfzun,
Həmişə düşmənin olsun cigərxun.
Sənin rayincə olsun çərxi-dövran,
Sənin hökmində olsun divü insan.
Dua oldı təmam, çün dutdı təmkin,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şah ona: bərakallah – dedi, təhsin.

Hər söz ki padşaha xoş gəlüb ona xələt və ənam verüb özinə həmdən eylədi. Gündən-günə hörmət eyləyüb müqərrəbi-şah oldı. Heç tərəfdən bir qəm və məlal olmadı. Götürüb anasına bir kağız yazdı ki, ey giramilər və səri-taclarım, sizə məlüm olsun ki, filan şəhrdə padşah xidmətində mükərrəm və müşərrəf olmuşam. Bir saət bəndəni özündən ayırmaz və sizin cənabınıza arzuməndəm, vəlakin mənim gəlməgim məhaldur. Sizün şəfqətiniz olsa bu tərəfə təvəccöh eyləyəsüz ki, rüzgar bana çox xoş keçər və sizün əhvalınıza müttəle degiləm. Əmma kağız gəlüb Xacə Həsənə yetüşdi. Ehtiyatun görüb rəvanə oldılar.

Gəl, imdi qəzayi-kirdgar gör oğlan padşah ilə keyf eyləyüb, eyş-işrətə məşğul olmuşdular. Nagah xəbər gəldi ki, filan şəhri qoşun qarət eylədi. Padşah qəzəbnak oldı. Əmr eylədi ki, qoşun tədarük görsün. Nəqarə dögülüb, çox xəzinə götürüb şəhrdən dışra çıxdılar.

**Nəzm:**

Çalındı kürrə, nayü küs, zurna,
Sanasan ol zaman mövc urdu dərya.
Nəqaranun üni çün cuşə gəldi.
Təmam yer yüzi çün cuşə gəldi.
Yeridi ləşkər ol dəm binəhayət,
Sanasan qopdı qövqayi-qiyamət.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şahənşah ləşkər üstə bişümarə,
Bəs ol dəm yetdilər bir mərğzarə.

Əmma mərğzarə yetüb padşah əmr eylədi ki, barxanə açub, karxanə qurdılar. Təmam xəmə-xərgah bərpa oldı. O gecə o mənzildə qaldılar. Bəs gün yatub, gecə oldı. Əkabirü əşrəflər təmam padşahun xidmətində müqərrər idi. Padşah xabi-istirahətə məşğul oldı. Qəzayi-ruzigar gör oğlan nə xəyal eylədi ki, məgər burada bir kəs padşaha düşmən ola, məbadə bir nöqsan yetürələr. Məsləhət budur ki, bən tiği-bürəhnə ilə padşahın başı üstə keşik çəkəm. Bundan padşahun bana ziyadə şəfqət, mərhəməti ola. Çün talei dönmişdi. Tiğin bürəhnə edüb, padşahın başı üstə gələndə əkabirlərdən biri xəbərdar olub, fəryad eyləyüb dedi ki, ey əşrəflər, bu rusiyah padşaha qəsd eylər. Pasibanlar bir qövqayi-qiyamət eylədi. Padşah oyanub oğlanı gördi ki, tiği-bürəhnə başı üstə durub. Buyurdı, qolun möhkəm bağladılar. Çox siyasət eylədilər, padşah dedi: Ey ruyi-siyah, bədəsl, səni özimə məhrəm eylədim və sana ənam, şəfqət eylədim ki, sən bana xəyanət eyləyəsən? Çün əslin yoxdur və yüzi qarəsən və çün düşmənlər də fürsət bulub dedilər: Ey qibleyi-aləm, bunun südi bəddür. Sənün kimi padşaha qəsd eylər. Oğlan dedi: Ey padşahi-aləm, bu dəvadə bənüm günahım yoxdur və mən belə fikir eylədim ki, məbada bədxah ola, sana bir zərər yetürə. Ol səbəbdən bu əmrə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qiyam eyləyüb, əldə qılıc bürəhnə eylədüm. Haşa, sənün kimi padşaha qəsd eyləməmişəm. Ol dəmdə təmam bədxahlar yerbəyerdən dedilər ki, ey padşahi-aləm, təqafül eyləmə. Bunı sən öldür, xəlqə ibrət olsun ki, sənin kimi şəhriyarə xəyanət eyləməsünlər. Padşah dedi, ey əşrəf-əyanlar, sizün sözünüz doğrudur. Nəhayət, səbr eyləmək mürüvvətdir.

**Nəzm:**

Vəleykin bir kişi gər olsa aqil,
Hər işdə o qılur səbr, təhəmmül.
Ölümə verməzik ölməz bir dəxi can,
Vəleykin dirini öldürmək asan.
Olunur bəhrə səbr ilə hər işdən
Ki, səbr ilə olur şəkkər qamuşdan.
İşində çün təcil etməsəydi şeytan,
Özi öz felindən olardı peşiman.

Dedi: Hərçənd bu mana fel eyləyüb, mən onın işində cəbr eylərəm-deyüb, onı məhbus eylədi. Qüll-zəncir vurdılar. Oradan köçüb düşmənün bərabərinə düşdilər. Dəfli-cəng urulub dilavərlər meydana girdilər. Hər iki tərəfdən səvaş dutdı.

**Nəzm:**

Dilavərlər qılub meydanda cövlan,
Sipahların qanından doldı meydan.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Pəs onda qopdı bir aşub qovqa,
Fələk eylərdi ol cəngə təmaşa.
Töküldü kəllələr, başlar kəsildi,
Bular güc tapuban, onlar basıldı.

Düşmənin qoşunı basulub pərakəndə oldılar və bunlar çox kəsblər eyləyüb qayıtdılar və şad, xürrəm oldılar. Qayıdıb öz şəhrlərinə gəldilər. Təbli-şadlıq dögdilər. Şah təxtə qərar tapdı. Oğlanı zindana apardılar.

Bir neçə kəlmə, gəl, Xacə Həsəndən eşit. Əyalın götürüb yola düşdi. Gecə-gündüz yol eyləyüb, gəlüb bu şəhrə yetüşdi. Gəlüb bir kənarda fərağət oldılar. Xacə Həsən xəlaiqdən xəbər eşitdi. Dedilər: Ol miskin oğlanı deyirsən, o zindanda məhbusdur. Padşaha qəsd eyləmişdi ki, həlak eyləyə. Xəbərdar oldılar. Çox çiyasət eylədilər. Əlhal ümmid var ki, padşah onı həlak eyləyə. Xacə Həsən bu sözdən giryan olub, huşdan gedüb, eylə fəryad eylədi ki, zəmin-asimanı yandırdı. Müztərib əlhal padşaha bir ərizə yazdı ki, ey qibleyi-aləm:

**Nəzm:**

Кi, şaha, dövlətün payəndə olsun,
Sana xaqan, sultan bəndə olsun.
Ziyad olsun ol cah-cəlalun,
Füzun olsun kəmali-bizəvalun.
Başun götür, nəzər qıl bir xudayə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Rəva görmə sitəm mən binəvayə.
Cəfalər çəkmişəm artuq ölmədən,
Pərişan olmuşam bən öz əlimdən.
Şaha, qılma bana sən zülmi-bidad,
Əlindən ruzi-məhşər eylərəm dad.

Ey padşahi-aləm, ol igid ki zindanda məhbus eyləmişsən, o mən fəqrin fərzəndidir və böyük qarındaşı ilə anaları məni görməyə gəlürkən mən oları dəryayə atdurdum. Onın dərdindən ürəgim qandur və munı da padşah zindanə salubdur. Ümmidvaram ki, ey qibleyi-aləm, bana lütfü ehsan eyləyəsən və bu oğlanı bana satasan. Hər nə qədər pul istərsən bəndən alasan, oğlumı bana verəsən. Əlbəttə, allahın yanında səvabın zaye olmaz.

Çün ərizə padşaha yetüşdi, dərya sözün eşidüb gözləri yaş ilə doldı. Buyurdı, bu ərizənün sahibin gətürün. Ol saət ərizənün sahibin gətürdilər. Padşah dedi: Ey Xacə, halun bir-bir bəyan eylə. Xacə Həsən müqəddəmənün əvvəlindən axirinədən təqrir eylədi. Padşah təxtindən yıxılıb bihuş oldı. Çün huşə gəldi, özün atasınun ayağına sürdi. Dedi: Ya baba, böyük oğlun bənəm. Ol dəm zindandan oğlanı gətürüb, ana və ata və qardaşlar bir-birin qucaqlayub şad və xürrəm oldılar.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ey padşah, əgər o padşah səbr eyləməsəydi, qardaşın öldürsəydi sonra peşiman olurdı. Səbr eylədi ki, muradına yetdi. Sən də mənim işimdə səbr eylə, muradə yetəsən.

Bu qissə təmam olunca gün batdı. Bəxtiyarı genə zindana apardılar. Məhbus eylədilər.

## AMADƏNİ-VƏZİRİ-SEVVOM

Ol gecə dolanub ruzi-rövşən oldı. Padşah təxt üstə qərar tapdı. Üçüncü vəzir əyağə durdı. Ərz eylədi ki, ey sultan, sənün kimi rüsvayü bədnam yoxmuş ki, bir napakzadəni gətürdün özünə həmdəm eylədün. Axir sana xəyanət eylədi. Sən belə bir padşahsan ki, zəmanə içində rüsvay olubsan. Genə bir fəsanə gəlür, fəsanə söyləyür, sən də qulaq asırsan və anı parə-parə eyləməzsən ki, qeyrilərə ibrət ola. Dəxi sənün kimi padşaha xəyanət eyləməyələr. Padşah bu söz-dən qəzəbnak olub əmr eylədi ki, Bəxtiyarı gətürün. Gətürdilər. Dedi: Ey bədəsil, bədxəyanət, əmr eylədim səni parə-parə eyləsünlər ki, zəmanə əhlinə ibrət olsun və kimsə padşaha xəyanət eyləməsün.

## CƏVABİ-DADƏNİ-BƏXTİYAR BƏR PADŞAH

**Nəzm:**

Dedi bəs Bəxtiyar, ey şahi-vala,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sana olsun pənah həqqi-təala.
Təhəmmül eyləmək allah işidir,
Təcil eyləmək şeytan işidir.
Necə kim, səbr qıldı Mərd Sabir,
Qamu mətləbi hasil oldı axir.
Кi, səbr etdigi üçün anı allah,
Çağırdı çah içindən, eylədi şah.

Padşah dedi ki, ol kimdir, necə azar gördi, səbr eylədi? Necə çahdan çıxdı? Padşah oldı? Təqrir eylə!

## HEKAYƏTİ-MƏRD SABİR

Bəxtiyar dedi: Ey padşahi-aləm, eşitmişəm rəvayətdən bir müəzzəm, məmur kənd vardı. Onda bir əqlməndə şəxs var idi. O şəxsin iki oğlı var idi. Onın ilə məaş, güzar eylərdi.

Qəzara, o əsrdə bir padşah tövci eyləyüb, o kənddən çox mal istəyüb, o kəndə nökər göndərdi. Nökər gəlüb kəndin adəminə çox azar edüb, dəva eylədi. Onlar da nökəri dögdilər. Padşah qəzəbnak olub əmr eylədi ki, kəndi qarət eylədilər. O Mərd Sabirin hər malı və əmvalı var idi, aldılar. Bir şey qalmadı, möhtac oldı. Bir gün əyalı dedi: Gəl, bir ərizə padşahın xidmətinə yaz. Məgər sənin malından sana bir şey verə ki, sənin günahın yoxdur. Dedi: Ey övrət, səbr eyləmək gərək. Mən də yüzimi həqq tərəfinə dutub o zalımın



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

haqqında dua eylərəm ki, həqq-təala bizim qisasımızı ol zalımdan alsun. Padşah həlqə geyüb mənim tək ac qalsun. Allah-təala onın o günini bizə göstərsün. Qiyamətə qoymasun.

Qəzara, bir şəxs bu təqriratı eşidüb, gedüb padşaha xəbər verdi. Padşah əmr eylədi ki, ona çox siyasət eyləyüb, əlin və əyağın sındırıb, iki oğlun və bir övrətin anın ilə belə qovdılar. O Mərd Sabir iki oğlun və bir övrətin götürüb getdi. Neçə gün yol eylədilər, qəzara, bir gün bir neçə oğrı bulara rast gəldilər. Bulardan axtarub bir zad tapmadılar. O iki oğlanı Sabirdən aldılar. Sabir genə şükr eyləyüb, allaha təvəkkül eylədi. Anası başın yolub, zülfini pərişan eylədi. Sabir dedi: Ey övrət, səbr eylə, allaha şükr eylə, riza qəzayə verincə ki, Eyyüb səbr eyləyüb murada yetdi və Həzrəti-Yəqub səbr eyləyüb murada yetdi və Həzrəti-Yusif didarına müşərrəf oldı. Sən də həqqə şükr eylə. Əlqissə, qəmnak, pərişan yola düşdilər. Gəlüb bir müəzzəm şəhrün kənarinə yetdilər. Mərd Sabir dedi: Ey övrət, sən burada əglən, bən gedüm bir qədər yemək şeyi alum, gəlüm. Mərd Sabir övrətün orda qoyub şəhrə getdi. Nagah bir cəvan səvarə gəldi. Gördü bir mahtələt, huripeykər orada durmuş.

**Nəzm:**

Dedi: Ey nazənin sərvi-bala,
Güləndam, səmənsima, dilara.
Neçün yalquz burda əglənübsən,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gəl aparum ol şəhrə səni bən.
Bən eyləyim sana ikrami-ezaz,
Sən eylə ol dəm bana işvəyi-naz.
Dedi bəs ona övrət, ey bəradər,
Rəva degil bir övrətə iki ər.
Yəqin bil, ey cəvani-xubkirdar,
Degiləm mən özim yalquz, ərim var.

O, biçarənün sözinə baxmayub dedi ki, əgər bənim ilə gəlməsən bu tiğ ilə səni parə-parə edərəm. O biçarə övrət naəlac qalub, əli ilə topraq üstə bir xətt yazdı ki, ey Mərd Sabir qəm çəkmə. Əgər bəndən əhval sorsan məni bu şəhrə apardılar.

Ol cəvan övrəti götürüb evinə apardı. O cəvanın bir anası var idi, pakdamən idi. Ol övrət üzini övrətin ayağına sürtdi. Dedi: Ey madəri-mehriban, allah rizasına, məni bu oğlundan əfv eylə. Bənim ərim var, vallah, ruziqiyamətdə səndən ədalət eylərəm. O zəni-saleh bu sözdən giryan olub dedi: Heç qəm çəkmə, sən də bənim fərzəndim və ondan sonra oğlına dedi: Fərzəndi-girami, bu mənim qızım oldı və sənə bacı oldı. Bundan təməi kəs.

Gəl, imdi xəbəri Mərd Sabirdən eşit. Gəlüb şəhrdən bir qədər yemək alub qayıtdı. Övrətin görməyüb, ah-nalə çəküb, fələki-gəcrəftar əlindən zar-zar ağladı.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Nəzm:**

Töküb hər dəm gözindən əşki-gülgün,
Sanasan Leylidən ayrıldı Məcnün.
Çəkər nalə, deyirdi: Ey fələk, dad,
Bəni sən qoymadın bir ləhzə dilşad.
Oğul getdi əlimdən kim, həmi zən,
Nəsib oldı bana fəryadü şivən.

Baxub gördi ki, övrət toprağa bir xətt yazubdur ki, ey fəqiri-dilşikəstə, bəni axtarmağa heç tərəfə getmə. Bəni bu şəhrə apardılar. Mərd Sabir genə səbr eyləyüb, şükr eyləyə-eyləyə şəhrə daxil oldı.

Qəzara, o şəhrün bir sitəmkar padşahı var idi. Bir əla imarət tikdürürdi. Müqərrər eyləmişdi ki, bir kimsə bu şəhrə daxil olsa idi, onı dutub bu şəhrdə imarətdə işlədirlərdi.

Qəzara, Mərd Sabiri dutdurub oraya gətürdilər. Çox yalvardı, əldən qoymadılar və neçə ağac onun başına urdılar. Başı para-para oldı. Qan başından tökülə-tökülə palçıq işinə saldılar. Sabahdan axşam olunca işlədi və axşam oldı. Gətirdilər məhbus eylədilər. Bəlayi-möhnət ənduhi-izafə oldı. Ona rənci-məşəqqətdə bir pir həmrah olmışdı. Gündüz işlüyüb hər ikisin bir yerə salub məhbus eylədilər. Qəzara, ol piri-miskin qəmnak olub ağladı. Çox zarlıq eylədi. Sabir dedi: Ey bəradər, çox əfğan eyləmə. Həqqə şükr eyləyüb səbr eylə ki, belə zalımları həqqi-təala sərnigün eylər və çox



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qəzayə salub çoxları çaha giriftar eylər və çox çahda olan miskinləri sahibi-təxtü-tac eylər.

**Nəzm:**

Çü oldı əhdi ol pəjmürdəxatir,
Eşitdi hər nə söylərdi Sabir.
Eşitdi bir xəbər xoşdur
Кi, həqq söz batilə oxdan betərdür.

Gəlüb padşaha xəbər verdi. Padşahi-zalim bu sözü eşidüb ona çox siyasətlər eyləyüb bir çaha saldı. Dedi: Səbr eylə ki, allah səni bu quyudan çıxarub padşah eyləsün. Biçarə Sabiri bir qaranluq yerə qoydılar. Mərd Sabir genə şükrə məşğul oldı. Heç kəs bundan xəbərdar olmadı. Məgər bir igit bu haldan xəbərdar olub həmişə gizli və xəlvətdə çörəkdən və yemişdən aparub Sabirin çahinə atardı. Əmma bilməzdi ki,ol çahda kimdir. Bir il bundan əqdəm şahın qardaşı vardı. Çox əqlməndən və fərzanə idi. Padşah xəyal eylədi ki,məbadə sipah və rəiyyət buna rəğbət eyləyüb məni həlak eylərlər. Qardaşın bir xəlvət yerdə öldürmişdi ki, heç kimsə xəbərdar degildi və xəlq gümanə düşdi ki, padşah bunı bir xəlvət yerdə məhbus eyləyübdür. Əmma padşahi-sitəmkar çox zülm eyləyüb çoxların malın alub, cəbr eylədi. Sipahlar bundan bizar olublar. Ərkani-əşrəf yığılub, qəsam-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yad eyləyüb beyət etdilər ki, padşahı həlak eylərük. Padşah xəbərdar olub gecə şəhrdən qaçdı.

**Nəzm:**

Nə sultan kim, ədalətdən bəridir,
Onın bədxahı həm öz ləşkəridir.

Əşraf-əyanlar cəm olub dedilər ki, padşahın bir qardaşı var idi. Əcəb nikü xisal idi. Neçə müddətdir ki, görməzük. Ol şəxs mütəvəccih olmışdı. Biri dedi: Bən onı bilürəm ki, bir çahə salubdur. Əyan-əşrəflər yığılub o çahın üstə gəldilər.

Qəzara, ol gecə Sabir şükr və ibadət eyləyüb xabi-qəflətə getmişdi. Aləmi-xabdə gördi ki, cənab Məhəmməd əl-Mustafa bunı görüb dedi: Ey biçarə, sənin bu səbrinə görə rəbbül-aləmin səni quyudan çıxarub bu şəhrə padşah eylədi və fərzəndin, əhli-əyalın sənə verdi. Mərd Sabir bu xəbərdən bidar oldı. Səcdeyi-şükr eyləyüb üzin toprağa sürtdi. Sübhdən ibadətə məşğul oldı. Nagah gördi səs gəlür.

**Nəzm:**

Səda eylədilər məhbusi-bəndi,
Əyağa dur, yapuş, salduq kəməndi.
Yapuşub çəkdilər onın bəxti,
Ona tabşurdılar həm tacü təxti.
Yüzi gül tək olub, açuq qabağın,
Əkabirlər qamu öpdi ayağın.
Yüzin dütdi qamu ol dəm xudayə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Olub məşqul şah üçün duayə.

Əmr olundı gərənay, kus, nəqarə çalub şadlıq eylədilər. Mərd Sabiri təxtə çıxartdılar. Təmam aləm əmrinə fərmanbərdar oldılar. Mərd Sabir təxtə çıxub bir ədalət eylədi ki, təmam rəiyyətləri müaf eylədi. Gündən-günə xəlqə bir lütf ehsan eylədi ki, təmam şəhrün sipah və sultanı ondan razı və xoşnud oldılar. Allaha şükr eylədilər.

Gəl, neçə kəlmə o padşahdan eşit. Mərd Sabirin malın alub əhlü əyalın əlinə verüb qovmışdı. Onın üstə bir düşməni-qəvi gəlüb, bu da onın bərabərinə çıxub dögişdilər. Düşmən bunı basub, qoşını pərakəndə olub, əhlü-əyalın götürüb, qədəri cəvahirlə bu şəhrdən qaçdı və bir neçə gün ac və susuz getdilər.

Qəzara, gəlüb Mərd Sabirin şəhrinə yetüşdilər. Mərd Sabirə xəbər verdilər ki, bir padşah əhlü əyalın götürüb şəhrdən kənarə düşübdür. Bir vəzir göndərüb onları şəhrə daxil eylədilər. Bir yaxşı mənzil olar üçün təyin eyləyib, onlara çox məhəbbəti-ziyadə eylədilər.

Qəzara, bir neçə gündən sonra padşah Mərd Sabir bundan əhval sordı. Bu, əhvalın Mərd Sabirə məlum eylədi. Çün Mərd Sabir bunı tanıdı. Buyurdı hər nələri var idi əlindən alub şəhrdən qovdılar. Əyan-əşrəf bu səbəbdən azurdəxatir oldılar. Bir neçə gündən sonra Mərd Sabir padşah əmr eylədi ki, hər gün hər kimin qulı və kənizi var, gətürsünlər,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

alacağam. Ol kəslər Mərd Sabirin oğlanların almışdı, ol iki oğlanlarun qolların bağlayub Mərd Sabirin xidmətinə gətür-dilər. Mərd Sabir oğlanlarun tanıyub əmr eylədi ki, ol kəsləri dutun. Dutub qolların bağladılar. Ol qədər dögdilər ki, təmam əzaları məcruh oldı. Ondan durub qaçdılar. Ərkani-dövlətlər dedi: Ey padşah, sən də qardaşın kimi sitəmkar oldın.

Gəl, neçə kəlmə Mərd Sabirin övrətindən eşit. O cəvan nabikarın anası bir gözətçi müəyyən eyləmişdi ki, oğlı ona xəyanət eyləməsün. Ol biçarə övrət eşitdi ki, bir padşahi-adil təzədən təxtə çıxub divani-ədl eylər. Fürsət tapub bir gün özün divanxanəyə salub, fəryad eylədi ki, ey padşahi-adil, bir zalım əlində giriftar olmışam. Ol cəvani-bədbəxt xəbərdar olub, övrətün ardından gəlüb, divanxanədə övrəti tapub dedi: Ey yaran, bu bihəya bənim övrətimdir. Bəndən yaxşısını görüb bana rəğbət eyləməyür və bana böhtan deyür. Bən bunı dögmişəm, qaçub padşahun xidmətinə gəlüb. Padşah buların halın eşidüb, divan eyləyüb iksini də xatir eylədilər. Əhval-xəbər aldı. Xəbər alandan sonra cəvani-bədbəxt dedi ki, ey qibleyi-aləm, bu xatun bənim övrətimdir. Bənimlə süluk eyləməz, bihəyadır. Onın üçün ki, deyüblər: Zənin əsl bivəfadır. Padşah dedi: Ey övrət, neçün onınla saziş eyləməzsən. Övrəti-biçarə özün çarşəb içində puşidə eyləyüb, ağladı. Dedi: Ey padşahi-aləm, haşa, bu bənim ərim degüldü. Əgər bənim ərim olsaydı ona canımı qurban eylərdim. Bənim ərim bir Mərd Sabirdir, - dedi. Övrət əhvalın



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

təqrir eylədi. Padşah buyurdı ki, hərəmi sərayə aparun. Hərəmi sərayə apardılar. Ol kişiyə çox siyasətlər eylədilər. Əşrəf-əyanlar dedilər ki, ey qibleyi-aləm, sən də qardaşın kimi sitəmkar oldun. Padşah dedi: Kimə nöqsan yetürmişəm? Əşrəflər dedi: Hanı o biçarə? Əhl-əyalı götürüb sana pənah gətürmişdi, gərək sən ona məhəbbət və ehsan eyləyəydün. Onun əmvalın alub şəhrdən qovdun. İkinci, ol şəxslər ki, qul satmaqa gətürdilər, qulı alub özlərinə siyasət eylədün. Mərd Sabir dedi: Ey yaran, bənim halımdan agah olun. Ol şəxs var idi, malın alub özin qovdı, o da məni qovmışdı. Əhl-əyalımı əlimə verüb kənddən çıxarmışdı. Allah bana fürsət verdi. Mən də bu qisası qiyamətə qoymadım. Mən də ona eylədüm. Əmma, ikinci, o oğlanlar bənim oğlum idi. Bənim əlimdən onları almışdılar. Bəni didəgiryan qoymışdılar. Üçüncü, ol övrət bənim övrətimdir və əhl-əyalımdır. Onı ona görə sərayə göndərdüm. O kişiyə zəcr-əzm eylədüm və nə olmışdı əvvəlindən axirinədən təmam nəql eylədi. Dedi: Bənim halım budur. Səbr eylədüm. Axiri muradə yetdüm. Əlhal bu təxt-tac üzrə hər kimi padşah eylərsüz mən də cani-dildən ona fərmanbərdar oluram.

Çün əşrəf-əyanlar bu sözləri eşidüb bunun halından xəbərdar oldılar. Özinə təhsin eyləyüb, səbrinə afərin. Dedilər: Ey padşahi-aləm, çün cənabül aləmin rəhməti və şəfqəti sənünlədür. Həqqi-təala sənin sayəyi-mərhəmətini



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bizim üstümüzdən kəm eyləməsün – deyüb, təmam birdən xidməti-zəmin öpüb tacü-təxti ona təslim eylədilər.

Gəl, xəbəri o padşahdan eşit ki, bu şəhrə padşah idi. Sabiri çaha salmışdı. Genə çox sepah cəm eyləyüb, Sabirin üstə gəlüb. Sabir də xəbərdar olub, əmr eylədi. Qoşun şəhrdən çıxub onınla bərabərə durdı. Təbli-cəng dögülüb iki tərəfdən dilavərlər meydanə girüb cəng eylədilər. Çün o bədbəxtün taleyi dönmişdi. Qoşını basulub özi də giriftar oldı. Dəstbəstə Sabirün xidmətinə gətürdilər. Sabir dedi: Ey qafil, bədbəxt, müqərrər eylədin, məni bir quyuya saldılar. Ona mən necə səbr eylədüm. Cənab rəbbül aləmin məni padşah eylədi. Mən də səni bu çaha saldım ki, qiyamətədən sana xilas yoxdur və rahi-nicat yoxdur. Ta ki, görəsən fəqirə zülm eyləmək necə olur. Müqərrər eylədi, bir quyuya saldılar. Onlar canın duzəxə tapşurdı. Eşidin və dinləyin Sabir kibi qamu varə-varə muradə yetsün.

Bu nəql təmam olunca gün batdı. Axşam oldı. Müqərrər eylədi, Bəxtiyarı zindana saldılar.

## AMƏDƏNİ-VƏZİRİ-ÇƏHAROM

Çün sübh oldı. Aftabi-cəhantab yer yüzin münəvvər eylədi. Sultan Azadəbəxt təxtə çıxdı, qərar tapdı. Vəziri-çəharom ki, adına Şəhruz deyərlər idi, xidməti-bus edüb dedi ki, ey padşahi-aləm, səndə namus, ar yoxdur. Xəlaiq nə sözlər deyür. Məgər dost-düşmən bilməzsən? Neçə tənə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

sözlər padşaha deyüb, padşah acıqlanub əmr eylədi ki, Bəxtiyarı üftan və xizan gətürdilər padşahun qulluğına.

**Nəzm:**
Dedi: Ey Bəxtiyar, bəxtiqara,
Bu gün ölmək gərək, sən para-para.
Neçün etdim səni zindanda məhbus,
Mənim üçün qalmayubdır nam-namus.
Sənin səbr ilə olmaz işin asan,
Ölümdən qeyri yoxdur sənə dərman.

## CƏVABİ-DADƏNİ-BƏXTİYAR BE PADŞAH

**Nəzm:**
Dedi bəs Bəxtiyar, ey bəxti-azad,
Həmişə olasan sən xürrəm-şad.
Qəza həm olmaya təqdir, təbdil,
Məni öldürməgə sən etmə təcil.
Gər öldürsən məni, ey şahi-dövran,
Olasan qorxuram axir peşiman.
Necə kim, ah-fəryad çəkdi Behzad,
Peşiman oldı axir, etdi fəryad.
Deyirdi ki, peşimanam, peşiman,
Vəleykin, dərdinə olmazdı dərman.

Padşah dedi ki, Behzad kimdir? Necə təcil eylədi? Halı necə oldı? Peşimanluq faidə vermədi? Təqrir eylə görək!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## HEKAYƏTİ-PADŞAHİ-BEHZAD

Bəxtiyar dedi: Ey padşahi-aləm, eşitmişəm rəvayətdən Şirvan şəhrində bir müəzzəm padşah var idi. Yeddi iqlimdən ona xərac gəlürdi. Əmma bir oğlı var idi, adına Behzad deyərlərdi.

**Nəzm:**

Yoxdı misli-manəndi cəhanda,
Məlaik müştaq ana asimanda.
Təsəvvürdən onun birun cəmali
Nəhayətdən füzun əql-kəmali.

Fəhmi-qabil, şirinzəban ol şahzadə Behzad bir yaxşı imarət tikdirdi bir səhradə. Hər yerdə bir qərib-binəva, möhtac dərviş getsəydi onun mehmanxanəsinə gəlüb naz-nemət yeyüb, istirahətə məşğul olur idi. Hər kimsə ki, getsə idi ona xələt verüb yola salurdı. Nəhayət, adəti bu idi ki, xəbər alurdı: Aya, mənim tək sahib-cəmal və xoşnəzər və xubsurət, səhli-qəddisəmən görübsüz?

**Nəzm:**

Dedilər ki, haşa, sümmə haşa,
Sənə biz görmədük manəndü həmta.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qəzara, Misir şəhrindən bir məcnunsifət oğlan gəlüb bunun otağına düşdi. Behzad bir neçə gün onun otağına eyş-işrət eylədi. Bir gün buna dedi: Ey əzizim, bu qədər səfər eyləmisən, mənim tək sahibcəmal, xoşkəlam görübmüsən? Oğlan dedi: Ey şahzadə, sən tək nikuxisal görməmişəm.

**Nəzm:**

Vəleykin, şahi-Misrin bir qızı var,
Gülşəndə olur tar, göstərsə ruxsar.
Cəmalı dilfirib, hüsni dilkəş,
Sənübər qaməti, şirin məhvəş.
Müqəddəs qaşlarıdur taqi-mehrab,
Görən kimsədə qalmaz taqəti-tab.
Dişi dürr filməsəl, qönçə dəhanı,
Əşhəri mübtəla qılmış cəhanı.
Saçı sünbül, qaşı yay, tiri-müjgan,
Alur işvə ilə hər dəmdə min can.
Vəfalı, mehriban,bir töhfə dildar.
Cəhanı mütləqa qılmış giriftar.

Ol qədər tərif eylədi ki, şahzadə Behzad onı görməmiş əqli-bihuş oldı və onın eşqinə giriftar oldı, saralub rəngi zəğfəranə döndi. Gündən-günə eşqi cismini yandırdı. Səbri və qərarı qalmadı. Divanə oldı. Atası bundan xəbərdar olub dedi: Qəm çəkmə, ey fərzənd. Nə qədər mal və xəzinə var sərf eyləyüb o nigarı sana aluram. Bəs Behzad təsəllixatir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

oldı. Şah əmr eylədi vəzir-vüzəra, ərkani-dövlət cəm olub bir namə padşahi-Misrə yazdılar bu təriqə ilə ki.

**Nəzm:**

Кi, şaha, dövlətün olsun ziyadə,
Əlində daim olsun cami-badə.
Cəhangiri sənün fərmanun olsun,
Yəmandan həqq sənün qalxanun olsun,
Başından sayəyi-həqq olmasun kəm,
Olasan müttəsil, dilşad, xürrəm.

Ey padşahi-alimiqdar, bənim fərzəndim var. Gərək mənim xatirim üçün qulluğı qəbul eyləyəsən. Ol fərxəndə asar olan qızını bəndəzadəyə verəsən və bizi sərəfraz eyləyəsən. Vəzirin birindən naməni padşahi-Misrə göndərdi. Çün namə padşahi-Misrə yetüşdi. Məzmun müttəle oldı. Məsləhət üçün vəzirləri yığdı. Onları təmam qəbul eylədilər. Dedilər ki, ey qibley-aləm, nə maneə var ki, sərvərlər şahunun bir oğlı məşhur və müərrif kimsədir. Onun mərifəti, şücaəti və səltənəti və lütfi ehsani-ziyadədür. Padşaha tərif eylədilər. Padşah cəvabnamə yazdı bu məzmun ilə ki, ey fərxəndə asar, pərvərdigari-aləm nəsib eyləmişsə, bəndənün nə həddi var maneə ola. Əcnasü cinsdən qeyri yüz min altun istərəm. Əgər göndərsən mübarəkdür. Yoxsa başa gəlməz.

Çün naməi-şah Şirvanə yetüşdi, əmr eylədi xəzinənün ağzını açdılar. Əcnas və libas təmam eylədilər. Baqi olmadı.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Oğlan genə fəryad-fəğan eylədi. Padşah dedi: Ey fərzəndgirami, bənim nam-niknəmi badə vermə. Rüsvayi-nihan eyləmə. Bana on gün möhlət ver, təmam baqini tapum, tədarük eyləyim. Çün eşq bunı pərişanhal eylədi. Səbri-qərari qalmadı.

Qəzara, canan yadına düşdi. Zar-zar ağladı. Padşahizadə rahi-biyaban dutdi, getdi. Ta yarı gecə gəlüb, bir mənzilə yetdi. Qəzara, karvan Misirə gedərkən gəlüb, o, rahi-mənzil eylüb, yük açmışdılar. Bir qorxulu məkan idi. Təmam bidar olub keşik çəkdilər. Gördilər ki, bir kimsə ahəstə –ahəstə gəlür. Bu biçarəni oğrı bilüb təmam yerbəyerdən bunun üstə hücum gətürdilər. Dutub əlin-əyağın bağladılar. Çox siyasət eylədilər, zəncirə vurdular. Axir karvanda onı bir xacə məhbus edüb rəvanəyi-Misir oldılar. Neçə gün yol eyləyüb, Misirə daxil oldılar. Onı bir xəlvətə məhbus qıldılar.

Əmma oğlanun anası xəbərdar olub, genə bir namə yazdı. Ey padşahi-Misri-cəhandar, bənim fərzəndim Behzadın həvayi-eşq başına düşüb, sizün ayağuzun toprağına gedübdür. Gərəkdir ki, bənim xatirim üçün onı cüstücu edüb, tapub onun dərdinə mərhəm edəsən. Eyni bəndə nəvazi olacaqdır. Çün bu haldan padşahi-Misr xəbərdar olub, əmr eylədi və carçılara nida eylədi: Hər kuhdə və hər məhəllədə ki, hər kimsə bu oğlanı tapub yanıma gətürsə, onı mali-dünyadən qəni eylərəm. Çün o xacə bu carı eşitdi. Gümanzədə olub oğlanun yanuna gəlüb dedi: Ey



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

oğlan, əslin bana məlum eylə. Oğlan başına gələni xacəyə nəql eylədi. Xacə bunun əyağına düşüb dedi: Ey sultan, məzur dut ki, səni bilməmişəm. Sana siyasət etmişəm. Bana həlal eylə və bir dəst məlbus, zərbəft və diba gətürüb oğlana geydürdi. Ezaz-ikram ilə padşahun xidmətinə gətürdilər. Ərz eylədi ki, ey qibleyi-aləm, bir biyabanda düşmüşdük. Bir oğlan bizə rast gəlüb, oğrı sanub bunı məhbus eylədük. Əlhal, kim oldığın bilmədük. Xidmətinə gətürdüm. Padşahi-Misr ona ezaz və ikram eylədi. Təbli-şadi dögülüb xoşhal oldı. Buyırdı toy tədarükin görüb, əsbabi-eyş mühəyya oldı və qazini gətürüb qızın əqdnamin oxıtdı. Ruzi-hicran getdi, padşah əmr eylədi təmam vəzirlər və əyani-əşrəf və ərkani-dövlətlər mehman olub, süfrələr salub, xanlar çəkdilər. Bütün nemətlər yeyüb, süfrələr yığılub şükr eylədilər. Ondan kus, nəqarə, çənglər gərdişə düşdilər. Vəleykən, şahzadə xoşhal və xürrəm-şad oldı. Neçə məqbultərnən eyş-işrətə məşğul oldılar. Nəhayət, səbri və qərarı qalmayub biixtiyar olub dedi ki, gedüb ol nigari-nazənini görüb təsəllixatir olsam yaxşıdır. Ol vəqt səbr eyləməyüb cəmaətdən gizli durub, hərəmxanəyə daxil oldı. Bir otaqda gördi ki, ol nigar bir neçə pəri, qəmərtələt, xurşid münzillər ilən eyş-şirətə məşğuldurlar. Dəriçənün bərabərinə gəlüb nəzər qıldı. Ol nazəninün cəmali-aftabın görüb əqli başından gedüb bihuş, mədhuş olub və heyran qaldı. Bir övrət baxub onı görüb, qızın anasına işarət eylədi. Ol bədfelin bir şişdəmirlü oxı var



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

idi. Oda qoyub, qızdırub dəriçənün yanına gəlüb, oğlandan bixəbər ol övrəti-bihimmət ol şişdəmiri oğlanun gözlərinə soxdı. Oğlan ah-nalə çəküb fəryad və fəğan eylədi, yıxıldı. Canını cəhanafərinə tapşurdu. Şah, ləşkər xəbərdar oldı. Sanasan qovqalı məhşər oldı. Bu haldan çün ol nigar xəbərdar oldı. Bir xəncər əlinə alub, oğlanun üstə gəlüb, qanını oğlanun qanına qatdı və cani-əzizin həqqə təslim eylədi.

Ey qibleyi-aləm, o da səbr eyləsəydi, təcil eyləməsəydi muradə yetərdi. Çün səbr eyləmədi, özinə nöqsan eylədi. Əgər sən də mənim işimdə səbr eyləsən, muradə yetərsən.

Bu nəql təmam olunca axşam oldı. Genə Bəxtiyarı zindana apardılar.

## AMƏDƏNİ-VƏZİRİ-PƏNCOM

Çün sübh-rövşan oldı. Aftabi-aləmtab yer yüzin münəvvər eylədi. Padşah təxtə çıxub qərar tapdı. Vəziri-pəncom ayağa durdı və ərz eylədi və fəryad-fəğan qılub dedi: Ey qibleyi-aləm, neçün yamanlığa yaxşılıq eylərsən. Hər kim yəmanə rəhm eyləsə, əhli-zəmanə zülm eylər. Əgər anın əslində həramzadalıq olmasaydı, sənün kimi şəhriyarın hərəminə xəyanət eyləməzdi. Neçün onı bənd-bənd kəsməzsən ki, cəmi nakəslərə təbiyin ola və ol qədir sözlər dedi ki,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

padşahun canına od düşdi. Buyurdi ki, Bəxtiyarı gətürün! Qəbağə gətürdilər.

**Nəzm:**

Dedi sultan ona: Ey bisərəncam,
Bizi sən eylədin rüsvayü bədnam.
Xilas olmaqçün çarə yoxdur,
Ölümdən qeyri sana çarə yoxdur.

## CAVABİ-DADƏNİ-BƏXTİYAR BƏR PADŞAH

Dedi bəs Bəxtiyar, ey şahi-salar,
Sana tovfiqi-həqq olsun bəsyar.
Barı pənahında səni saxlasun allah,
Yetməsün sana asibi-allah.
Əgər şah eyləmiş qəsdi-həlakım,
Mənim yoxdur bu işdə heç günahım.
Ümidvar olmışam qadiri-alihə
Zəval olmaz hərgiz bigünahə.

Xudavəndi-cəhan ola pənahım, ey qibleyi-aləm, bəni-fəqirin halı ol Dadbidin dastanına oxşar. Vəzir əmirini öldürdü qızın hökmü ilə. Götürdi o biri vəzir ona böhtan dedi. Böhtan vəziri həlak eylədi və qız aqibəti-muradə yetdi. Padşah dedi: Kimdir Dadbid, vəzirə böhtan eylədi? Onlarun müqəddəməsin eylə!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## HEKAYƏTİ-DADBİD

**Nəzm:**
Dedi bəs Bəxtiyar, ey şahi-aləm,
Cəhanda çəkmə sən heç bir qüssə-qəm.
Biləsən ki, qurtulmaya bədgu heç bəladan,
Ola eymən qamu şərdən, qəzadan.

Rəvayətdən eşitmişəm ki, bir padşah var idi. Adına Dadbid deyərlər idi. Onun çox ali, gənci və xəzinəsi və iki vəziri var idi. Birinün adı Özibəxt və o birinün adı Kardan idi. Özibəxtin bir qızı var idi. Bu nişanlar o nazənində var idi.

**Nəzm:**
Mütərra, zülfü seyl, qəddi şimşad,
Xəcil anın böyundan sərv azad.
Yüzi gül, ləbləri bal, ağzı püstə,
Əcaib nazənin, rəna xocəstə.
Vəli, pərdənişin manəndi-Bilqeys,
Nədür heç bulmaya təzvir, təlbis.
Nə məşuq bilməmiş, nədür nə aşiq,
Həmişə həqq ilə könli müvafiq.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çün salim idi, möminə idi. Həmişə gecələr ibadət eyləyüb həqqə niyaz eylərdi. Derdi ki, heç zövqü səfa, eyş-şirət yoxdur. Şövhərə getmənəm. Muna çox elçi gəlirdi. Vəzir cəvab verirdi.

Qəzara, Dadbidə bunun tərifin eylədilər. Cəmi əşrəf-əyan, vəzirlər arasında hazır idi. Dedi ki, gərəkdür qamu bu halə razı olub ol qızı bənim əqdi-nigahimə gətürəsüz. Qızun atası gəlüb dedi: Ey nazənin mahpeykər, nola padşahı özünə şövhər və bana damad eyləyəsən. Qız atasından həya eyləyüb dayəsinə dedi: Mən bu sözə razı degiləm. İşim həmişə zikri-taətdür və padşahın işi həmişə eyş-işrətdür və onun təbi ilə bənim təbim xoş eyləməz, ola ki, padşahın neçə hərəm-məhrəmləri vardur, padşah bənim ilə müşfiq ola. Onlar həqdü həsəd eyləyüb bana böhtani-əzim deyərlər və padşah bəndən rəncidəxatir olub, məni həlak edərlər. Dayəsi əhvalatı atasına dedi. Atası da dedi ki, bu məsləhətə razı olmaz. Vəzir gəlüb padşaha cəvab verdi. Padşah qəzəbnak olub, bir əmudi vəzirin başına urub, vəzir həlak oldı. Hökm eylədi o nazənini gətürdilər. Dəxi o nazənin gördi ki, dəxi qeyri əlac yoxdur, naməşruə razı olmayub, əqdi-nigah oxundı. Кus, nəqarə dögüb eyş-işrətə məşğul oldılar. Bir neçə gün eyş eylədilər. Nagah xəbər gətürdilər ki, filan şəhri yağı çapdı. Buyurdı ki, ol kərr nalə çəküb qoşun şəhrdən dışra çıxdılar. Padşah ol dəmdə Кardan vəzirə buyurdı hərəm



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

əmanəti və şəhri də Кardanə tapşurdı. Ondan ləşkəri götürüb rəvanə oldı.

Gəl, xəbəri Кardan vəzirdən eşit ki, bir gün hərəmdə ol nazəninə gözi sataşdı. Əqli başından gedüb, halı pərişan olub, səbrü qərarı qalmayub, pərişan oldı. Rəngi-ruyi zəğfəranə döndi. Məcnun dərdindən füzun oldı. Axər çox fikir-tədbir eyləyüb bir məkkarə pirəzəni ol nazənin xidmətinə göndərdi.

**Nəzm:**

Кi, cana mən, sənün eşiqində zarəm,
Giriftari-pərişani-rüzgarəm.
Sənün eşqində oldum mən cigərxun,
Necə kim, Leylinün eşqində Məcnun.
Sana bən mailəm, ey qəddi şimşad,
Beynihi kim, Şirinə Fərhad.
Bənim könlüm alə-al, ey simbər,
Dutaram ətəgindən ruzi-məhşər.

Çün bu peyğamı o məkkarə ol nazəninin, xidmətinə yetürdi. Ol nigari-nazənin o övrəti məlamət eyləyüb dedi: Səni elçi eyləyənün başına topraq olsun. Gedüb ol bisəadətə degilən ki, ey şərməndə xain, sənə bən necə müvafiq olum. Bu təqsir Dadbidindir ki, öz evini sənin kibi xainə tapşurdi. Кönlündən bu xəyalı çıxar. Bu sözi daxi tərg eyləsün, sənün sözün Dadbidə deməzəm. Yoxsa bu sirri faş edərəm ki,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dadbid səni bənd-bənd kəsər. Çün bu xəbər Кardana yetdi. Eşitdi, gündən-günə peşiman oldı. Dedi ki, əgər padşah bu sirri bilsə, məni ərrə ilə parə-parə eylər. Gərəkdür bən buna bir tədbir və bir çarə eyləyüm. Fikir batilə düşdi. Ol gün ki, padşah qızun atasın öldürdü, malın talan eylədi, bir xubmənzər qulı var idi. Onu da gətürüb aşbaz eyləmiş idi. Özinə cümlə mətbəx əsbabın ona ənam eyləmiş idi. Ol bisəadət öz qorxusundan qıza böhtan dedi. Səfərdən padşah qayıdub, Кardan vəzir qarşusına gedüb şaha səcdə eyləyüb, dualar eylədi və qəmgin durdı. Sual eylədi ki, ey vəzir, həmin hal neçün şuridəhalsan ki, qəbağın açılub, yüzün gülüb açmazsan? Vəzir ağlayub dedi: Ey qibleyi-aləm, bir gizli sirr var, qorxuram padşaha ərz eyləyim, bana azar eyləyə. Padşah qəsəm eylədi. Vəzir dedi: Ey padşah, əgər sən bənim bu sirrimi faş eyləsən, bu sirri sana deməzəm. Padşah vəzir ilən əhd-peyman bağladı. Dedi: Ey qibleyi-aləm, çün səfər əzminə rəvanə oldun, bana bir övrət xəbər verirdi ki, banuyi-hərəm bir qul ilə mülaqat eyləyüb, bir-birinə eyş-işrət eylədilər. Mən mütəvəccihi-hərəm oldum. Qul da ol kəsdir ki, padşah mətbəxin ona təslim eyləyübdür. Mən eşitdüm ki, ona deyir ki, ey vəfadar, nələr sənin ucundan çəkmişəm, gəldin bənüm bəkarətimi götürdün. Çün bən qız degiləm. Ərə ixtiyar eyləməzdim. Atamı ölümə verdüm, fayda vermədi. Əmma, ey yari-vəfadar, iki mətləb mənim könlümdə vardur. Biri bu ki, səninlə həmnişin olub rüzgar keçirəydüm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İkinci, oldur ki, atamın qanun bu xunxar zalımdan alaydun. Əlhal vəqti-fütsətdür, sənə bir əmdək zəhri-qətl verürəm. Padşahın aşına daxil eylə ki, cəhənnəmə vasil olsun. Oğlan dedi: Ey nazənin, bu iş bənim əlimdə asandır. Belə qul ilə iqrar eylədilər.

Ey qibleyi-aləm, bən səni xəbərdar eylədüm. İmdi sahibi-ixtiyarsan. Padşah bu sözdən qəzəbnak olub əmr eylədi ki, ol qulı siyasət ilə gətürün. Qulı gətürdilər. Öldürdi. Pəs, buyurun xatunı qələdən atsunlar. Ərkani-dövlətlər deyillər: Ey padşah, bizdən bu nəsihəti qəbul eylə. Layiq degil ki, padşahın övrəti belə biabır olmaq. Səlah oldur ki, bunun təlaqın verəsən, bürəhnə və təşnə və gürüsnə aparub bir biyabanda qoyalar, ac və susuz qalub özi həlak olur. Padşah buların iltimasın qəbul eylədi. Bir köhnə libas geydürüb, aparub bir biybandə qoyub gəldilər. Ol biçarə miskin nalə eyləyüb, ac və susuz, giryan, nalan ol biyabanda gəzirdi. Gəlüb bir çeşmənin üstə yetüşdi. Dəst-nəmaz alub nəmaz qıldı. Təzərröyi-qazi ül-hacatın dərgahinə yüz dutub naliş eylədi. Dedi: Ey xudavəndə, sənə məlumdur ki, bən xəyanət eyləməmişəm ki, bu zalım bəni rüsvay-cəhan eylədi. Sən mənim intiqamımı o sitəmkardan alasan. Zar-zar ağlayub taətə məşqul oldı.

Qəzara, bir sarvan dəvə itürüb biyabanı gəzüb bu çeşmənin üstə rast gəlüb dedi: Ey nigari-nazənin, sən hara, bura hara? Nazənin dedi: Ey bəradər, bən bir zəif bikəsəm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əgər sən padşaha bənim xəbərimi aparsan, sana çox ənam, xələt verür. Qəzara, padşah şikara çıxmışdı. Sarvan nigari-nazənin yanından qayıdub padşaha rast gəlüb dedi: Ey sultan, bu çeşmənin üstə bir sənəm oturub. Əgər sultani-aləm ona nəzər eyləsə, dəxi qeyri şikarə məşqul olmaz. Padşah dedi: Ey sarvan, vəleyk gedək ol nigarı bana göstər. Sarvan padşahı o nigarın yanına gətürdi. Padşaha ol nigarı göstərdi. Padşah ona tamaşa eylədi.

**Nəzm:**

Nigari-nazənin gülüzarı,
Kim bunı görsə qalmaz ixtiyarı.
Bəsa Çin filməsəl, sərxeyli-xuban,
Xəcil olur yüzindən mahi-taban.
Güli-həmrayə bənzər hər yanağı,
Suzidəşəhd, şəkkərdür dodağı.
Boyu sərvü sənubər, hüsni gögçək,
Başından getdi əqli onu görcək.

Padşah əmr eylədi: O nigari ata mindirüb şəhrə aparun – dedi. Padşah şəhrə daxil olub, qazi gətürüb, ol nigarı əqdi-nigah eylədi. Onunla eyş-işrətə məşğul oldı və ol nigari-nazənin öz məqsədin o padşaha şərh eylədi. Padşah dedi: Ey nigari-nazənin, sərvi-bala qəmgin olma. İnşallah-təala sənün intiqamın o zalımdan aluram. O vəziri dəstbəstə sənin xidmətinə gətürüm. Əgər sənin hər nə əlindən gəlürsə ona



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

eylərsən. Ol padşah buyurdi, təbil və kusü nəqarə urub ləşkəri yer yüzin xəbərdar olub, təngə gəlüb, padşah qoşunı götürüb Dadbidin üstə gəldi. Dadbid də xəbərdar olub, ləşkəri şəhrdən çıxarub, bərabərə düşdilər. Hər iki tərəfdən təbli-cəng dögülüb, pəhləvanlar meydanə girdilər. Dadbidün qoşunı məqhur olub, basıldı. Dadbid və qamu əyanlar giriftar oldılar. Dəstəbəstə padşahın hüzurinə gətürdilər. Padşah əmr eylədi, təmam şəhri qarət eylədilər. Mal-xəzinəsin götürüb əzmi-şəhr eylədilər. Ol dəmdə qayıdub Dadbidə qüllbənd-zəncir edüb, təmam əşrəf-əyanları götürüb öz şəhrinə gəldi. Əmr eylədi, Dadbidi də, vəziri də, əşrəf-əyanları ilə hərəmxanəyə gətürdilər. Ol nigarun xidmətində durdılar. Padşah əmr eylədi, bir zərnigar pərdə qurub, gəlüb pərdənin dalında qərar tapdı. Dedi: Ey zalım ruyi-siyah, mənim atamı neçün oldürdün və məni bürəhnə eyləyüb bir biyabanda avarə neçün qoydun? Nə günah gördün məndə? Bana siyasət eylədün. Təqrir eylə, hazır olanlar eşitsinlər, bilsinlər. Çün Dadbid bu sözü ol nigardan eşitdi, bildi ki, ol məhliqadur.

**Nəzm:**

Dedi: Ey məhliqa, xurşid tələt,
Кi, mən heç görmədüm səndə xəyanət.
Vəli bir söz eşitdüm Кardandan,
Sana zülm eylədüm mən gümandan.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Кardan vəzir dedi: Ey şəhriyar, mənim yüzüm qaradur, hər nə eyləmişəm, mən eyləmişəm. Ol vəqt ki, padşah səfər eylədi. Bana hirsi-şeytan qəvi olub bir övrəti nazənin xidmətinə göndərdüm. Padşaha xain oldum. Bu nigar bana məlamət eyləmişdi. Mən öz qorxumdan ki, məbadə xatun padşaha izhar eyləyə. Padşah da məni bənd-bənd kəsə, axir ana böhtan bağladum və özimi qurtardum. Vallah, heç təqsir nə oğlanda var idi ki, həlak oldı və nə nigarda. Pəs bu nigari-nazənin dedi: Əlhəmdülillah, ey padşah, eşidün mənim təqsirim yoxdur ki, bənim günahım bildün. Padşah Dadbidə o halda qət yetürdi. Vəzirin gözlərin çıxarub, əlin və ayağın kəsdilər. O bisəadət fəryad eylədi.

**Nəzm:**

Məni görüb sizə ol ........-qeyrət,
Deməyün kimsəyə böhtan, töhmət.
Qazar hər kimsə özgə qəsdinə çah,
Özi axir düşər ol çahə nagah.
Bəladən olmaq istərsən səlamət,
Əmanət, kimsəyə sən qılma möhnət.
Ziyan eylər özi üçün dəst kirdar,
Olur öz felinə axir giriftar.
Aparub saldılar anı biyaban,
Siyasət birlə təslim eylədilər can.
Yetüşdi Кardan ol dəm cəzayə,
Hənuz az idi bu həm o səzayə.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu söz məşhurdur əndərzəmanə,
Yəman hər kim sanur, uğrar yəmanə.

Vəzir Кardan inşallah həman dərdə giriftar ola, ey qibleyi-aləm. Gümanım var inşallah ki, mənim günahım yoxdur. Nicat taparam, bulardan qurtaram. Bədxahlar yəman dərdə giriftar olub. Bu nəql təmam olunca axşam oldı. Genə Bəxtiyarı zindana apardılar.

## AMƏDƏNİ-VƏZİRİ-ŞEŞOM ŞEKAYƏT NƏMUDƏN

Çün sübh-rouşən oldı. Vəziri-şeşom ayaqa durub padşaha: Əcəb binamus padşahsan – dedi. Bir həramzadə hər gündə bir məkr söylər, padşah onı həlak eyləməz. Ey padşahi-aləm, Bəxtiyarı həlak eylə ki, biz nədamətdən həlak olmayaq. Padşah bu sözi vəzirdən eşidüb əmr eylədi ki, Bəxtiyarı gətürdilər. Dedi: Ey bədbəxt, sənün səbəbindən rüsavay-cəhan oldum. Bilin, mühəqqəq üziqarəsən. Səni parə-parə eyləyim ki, xəlqi-cəhan səndən ibrət eyləsünlər.

## CƏVABİ-DADƏNİ-BƏXTİYAR PADŞAH RA

Dedi pəs Bəxtiyar, ey sahibi-sər,
Cəhan olsun sənin hökmində yeksər.
Ümmidim var xudavəndi-cəhanə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Səni uğratmasun hərgiz yəmanə.
Əgər kəssən məni sən bəndü bənd,
Sənün başın sağ olsun, ey xudavənd.
Vəli bağlamışam həqqə mən ümid,
Məni həqqə eyləmə məhrum, nomid.
Dürüstdür həqqə ixlasi-yəqinin,
Olur axir səadət həmnişinin.

Dedi: Ey qibleyi-aləm, necə ki, Bəxtazima həqqə ixlas bağladı, Allaha təvəkkül eyləyüb, anın müşkili həll oldı və işi asan oldu. Mən də həqqə ummid bağlamışam. İnşallah-təala işim əncam tapar. Bunlardan qurtarub səadətə həmqərin olam.

Padşah dedi: Bəxtazima kim idi ki, həqqə təvəkkül eylədi? Necə muradə yetdi? Nəql eylə görək!

## HEKAYƏTİ-BƏXTAZİMA

Bəxtiyar dedi: Ey padşah, eşitmişəm ravidən bir padşah var idi. Çox qafil və habil idi. Həmişə eyş-işrətdə idi və şərab içər idi. Ləhvü ləəb ilə rüzgar keçürdürdi və dəxi onun üçün divan və dəftər və hesab yox idi. Özündən bixəbər mədhuşi-heyran oldı. Rəiyyət və ləşkər təfriqə və pərişan ilə rüzgar görərdi. Qəzara, onın üstə bir qəvi düşmən gəldi. Əlindən ixtiyarı gedüb şəhri satub qaçdı. Dağda məkan saldı. Bir az



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

müddətdə bəzi nökərdən və cahildən və əgri, oğrı üstünə cəm oldı. Ətraf cəvanına xəbər göndərdi. Çox ləşkər cəm eylədi. Qoşunı götürüb o sultanın üstə gəldi. Sultan xəbərdar olub ləşkərin şəhrdən çıxarub Bəxtazimanun ləşkərinə bərabər durdılar.

**Nəzm:**

Yeridi hər tərəfdən çünki ləşkər,
Olar bir-birilə dögişdilər.
Elə qeyrət ilə pəhlavanlar,
Yeridi su kimi ol dəmdə qanlar.

Bəxtazimaya bəxt yar olmadı. Qoşunı basılub özi yüz ənvai-siyasət ilə canını qurtarub aradan çıxdı. Neçə gün ac və susuz gedüb, gəlüb bir şəhri-əzimə yetdi. Gəlüb o şəhrün padşahın xidmətində zəminbus eyləyüb ərz eylədi ki, ey sultan, gərəkdir ki, bu kəmtərini nökərligə qəbul eyləyəsən. Padşah qəbul eylədi. Ona bir dəst libasi-faxir şəfqət eylədi. Çün əslində qabiliyyət var idi. Bir neçə gündən sonra bir fəsahət və bəlağət izhar eylədi ki, cəmi əşrəf-əyanə xoş gəldi və ona çox təhsin eylədilər. Padşah xidmətində müqərrəb oldı. Nəhayət, həmişə işi ah-nalə iləydi, yüzi gülməzdi və könli açılmazdı. Padşah bir gün bundan əhval xəbər aldı ki, aya, xatirin və könlin qəmgin neçündir? Bəxtazima ağlayub dedi: Ey sultani-sərvər, mən gəda dögiləm. Mənə şahi-cahan-Bəxtazima deyərlər idi. Mənə bəxt yar olmayub



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

üstümə düşmən gəldi. Ləşkərim məğlub oldı, basıldım. Həzar müsibət ilən sənün xidmətinə gəldim. Çün padşah bu sözləri eşitdi. Təzədən Bəxtazimaya ezaz eylədi. Dedi: Qəm çəkmə, hər nə ləşkərim var sana verrəm, götürüb gedərsən, düşməndən intiqam alursan. Əmr eylədi, sipah, ləşkər xəbərdar olub qoşun cəm oldı. Zəmin təngə gəlüb Bəxtazima ləşkəri götürüb öz şəhrinin üstə gəldi. Genə xəbərdar olub qoşunun şəhrdən çıxarub Bəxtazimaya bərabər durdılar. Hər iki tərəfdən dilavərlər meydana girdilər.

**Nəzm:**

Səvaş düşdi araya iki yandan,
Boyandı lalə tək yüz yeri qandan.
Qılur kim ciddi-cəhd, səyi-bəsyar.
Nə hasil olsa dövləti-giranbar.

Əgər yar olmaz isə bəxt, tale olur bifaidə. Ol səyi-zaye pəs ol dəm bəxt, tale gör nə qıldı. Yenə Bəxtazima ol dəmdə basıldı. Qəza işləyüb, Bəxtazimanun ləşkəri dağlub, özi həzar müsibət ilən qaçdı. Neçə gün ac və susuz pərişan gəzüb, qəzara, gəlüb bir dəryanun kənarına yetdi. Neçə məllahlar onda hazır idi. Onlara iltimas eyləyüb, yalvarub, munı dəryadan keçirdilər. Gəlüb bir müəzzəm şəhrdə bir mükərrəm padşaha yetdi. Dedi padişaha: Bir qəribi-binəvayəm. Eşitmisən ki, bən şahi-Azimayəm. Cümlə sərgüzəştəsin o padşaha bəyan eylədi. Ol padşah buna



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ezaz, ehtiram eyləyüb dedi: Qəm yemə və heç xatirşərifinə ənduh gətürmə. Sən bənim qardaşım ol və cümlə sirrimə mərhəm ol, eyş-işrət eylə. Nə qədər ömrün var naz-nemət ilə sərəfraz ol. Bəxtazima şad-xürrəm olub, eyş-işrətə məşğul oldu. Bir müddət rüzgarı bu padşah ilə keçirürdi.

Qəzara, bir gün padşahın üstə bir düşmən gəlüb, padşah özi meydana girib cəng eylədi. Axirüləmr, düşməni basub bərtərəf eylədi və özi düşməni aldı. Bəxtazima dedi: Ey qibleyi-aləm, səni Allah saxladı, yoxsa, ey sultan, heç aqil belə işi eyləməzdi ki, bu gün sən eylədin. Sana lazım odı ki, bir məkan, əlavə məkan dutub, istiqamət tapub müqərrər eyləyəydün ki, sipah və ləşkər cəng eyləsinlər. Nə kim, özün meydanə girüb cəng ilə sən bunı xilafi-rəy eylədin. Padşaha dedi: Ey yari-vəfadar, sana şərh eyləyim. Bir nağılım var ki, mən həmişə həqqə təvəkkül eylərəm. Anın üçün bir peşmanluq görmənəm ki, mənim işim ixlasdır və təvəkküli-allah ilədür. Bir səbəb var sənün üçün nəql eyləyim. Keçən illərdə bənim üstümə bir düşmən gəldi. Bən öz gücümə məğrur olub şəhrdən dışra çıxub ol düşmən ilə cəng eylədüm, basıldım. Ləşkərim pərakəndə olub, özüm yüz ənvai-siyasət ilə qurtarub, bir kənarə çıxub qaçdım. Neçə gün yol eyləyüb güzarım bir kuhzara düşüb, bir dərvişə rast gəlüb, çün ah-fəğan eylədüm. Dərviş dedi: Ey miskin, kimin əlindən ah-fəğan eylərsən? Əhvalı ona şərh eylədüm. Dedi: Ey şəhriyar, öz gücünə məğrur olmuşsan. Səni xudavəndi-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

aləmin məğlub və məqhur eyləyübdür və anlar pərvərdigarə təvəkkül eyləyübdür. Anınçün allah onlara yar olubdur. Əgər istərsən ki, sana çarə ola, sən də xudaya təvəkkül eylə. Tovfiq, inayət istə ki, sana iqbal, səadət yar ola. Bu sözləri deyüb nabud oldı. Pəs ol gündən bəri təvəkkül-allah eyləmişəm. İşim asan olub. Bir az müddət öz təxtində oturub qərar tapdı.

**Nəzm:**

Bana yoldaş ola tovfiqi-Yəzdan,
Ona kar eyləməz şəmşiri-bürran.
Gər istərsən muradın ola hasil,
Könül bağla həqqə sən, olma qafil.

Bəxtazimayə bu sözlər əsər eyləyüb, ixlas həqqə bağlıyub, gəlüb bir guşədə ibadətə məşğul olub, bir neçə vəqt rüzgarın ibadət ilə keçürdi. Allah ona yar oldı. Dövləti-həmnişin olub, bir gecə vaqiədə gördi ki, deyirlər: Ey şəhriyar, allah tovfiqi sana yar oldı. Səbah öz şəhrinə rəvan ol ki, cənab rəbbül-aləmin səni öz təxtində padşah eylədi. Sübh olan kimi rəvan olub, gəlib şəhrinə yavuq yetişəndə, qəzara, ol gün əyan-əşrəf seyrə çıxub zövqü səfa eylərdilər. Hər kəs Bəxtazimaya rast gəldilər, dedilər: Ey cəvan, sən bizə aşina görünürsən. Aya, sən kimsən? Bəxtazima özin məlum eylədi. Təmam əşrəf-əyan Bəxtazimanun ayağına düşdilər. Dedilər: Ey qibleyi-aləm, sən bizim təqsirimizi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bağışlayasan. Əlhəmdü-lillahü-aliminə, səni gördük, qəmdən xilas olduq. Bəxtazimanı götürüb gecənün bir vəqtində şəhrə daxil olub, əhdü beyət eylədilər. Gəlüb Bəxtazimanun düşmənün dutub həlak eylədilər. Bəxtazimanı gətürüb təxtinə çıxardılar. Təmam şadü xəndan olub, eyşü işrətə məşğul oldular.

Bəxtazima çün həqqə təvəkkülü ixlas bağladı, muradına yetdi. Ey qibleyi-aləm, ümmid var ki, mən fəqr həqqə təvəkkül eyləmişəm. Anın dərgahinə ümidim var. Məni bu bəladan saxlayub xilas eylər.

Çün nəql təmam olunca axşam oldı. Genə Bəxtiyarı zindana saldılar.

## AMƏDƏNİ-VƏZİRİ-HƏFTOM ŞEKAYƏT NƏMUDƏN DƏR NƏZDİ-PADŞAH

Çün sübh-rouşən oldı, ruyi-zəmin afitab doldı. Padşah təxt üstə qərar tapdı. Vəziri-həftom ayağa durub ərz eylədi. Zəmini-xidmətbus edüb dedi: Ey sultani-sərvər, bu qədər səbr, əhlə zəcr eyləmək aqillər işi degil ki, sənün namus-namunı bu bədbəxt hərəmzadə badə verdi. Padşahlar arasında sənin adını zəlil eylədi. Hər yerdə bu söz söylənür ki, bir həramzadə padşaha xain əməli-naməşru eylədi. Qərib bihimməti-padşahdır ki, hər gündə bu söz ilə padşahı aldadur və özini hifz eyləyür. Neçə tənə sözlər dedi. Padşah



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qəzabnak olub buyurdı. Bəxtiyarı gətürdilər. Dedi: Ey bədəsl, nadan, bimürüvvət, sana ölümdən qeyri çarə yoxdur. Əmr eyləyim ki, səni parə-parə eyləsünlər.

## CƏVABİ-DADƏNİ-BƏXTİYAR BE PADŞAH

Dedi bəs Bəxtiyar, ey şahi-aləm,
Başından sayəyi-həqq olmasun kəm.

Məni əfv eylə, ey şahi-cəhangir. Necə ki, əfv qıldı şah Behkərd ona nə eyləmişdilər. Çünki o dərdi-xəta qılmışdı. O bir qulamı bağışladı, onun cövrün təmami. Padşah dedi: Ey Bəxtiyar, şah Behkərd kimdir? O necə xəta eylədi? Təqrir eylə!

## HEKAYƏTİ-BEHKƏRD ŞAH

Dedi bəs Bəxtiyar, ey şahi-adil ki, hər nə kim dilərsən ola hasil. Bir padşah var idi, çox sipah və ləşkəri və mal-xəzinəsi var idi. Özi də çox süxəndan idi və pürəql, nikukar idi.

Qəzara, bir gün şikarə çıxmışdı. Onun bir qulı var idi. Çox təbərəndaz idi. O qul şikarə ox atanda şikardan rədd olub şah Behkərdün qulağına dəgüb, qulağı üzüldi. Təmam ləşkər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

fəryad-fəğan eylədilər. Məlum oldı ki, ox bu qulamın işidür. Dutub padşahın xidmətinə gətürdilər. Şah əmr eylədi ki, cəllad gəlüb o qulamı qətlə yetürə. Biçarə ah-fəğan eyləyüb, yalvardı. Dedi ki, ey qibleyi-aləm, allah şahiddir ki, bən xəyanət ilə təbər atmamışam.

**Nəzm:**

Rəva görmə sitəm, mən bipənahə
Ki, mən qəst etməmişəm padşahə.

Mən ox atdım ava ki, təqdirə çarə yoxmuş. Barı təala həqq-ədalət eylə, yazıqam, bəs məni öldürmə nahaq.

Kərəm eylə, xəta qıldım, əta qıl,
Məni azad, əzbəhri xuda qıl.
Fəda olsun sənün yolunda canım,
Gər öldürsən, qalur boynunda qanım.
Ədalət eylə, şaha, olma zalım,
Bu gün rəf eylə boynundan vəbalım.

Çox ağlayub yalvardı, padşahın ona rəhmi gəldi. Günahın bağışlayub mürəxxəs eylədi. Bu oğlanun əslindən xəbər al. Bu oğlanun atası qeyri məmləkətdə vəzir imiş ki, təmam divan və dəftər onun hökmində imiş. Bu oğlanı tifil ikən oğurlayıb aparmışlar imiş. Həmişə vəzir bu oğlandan ötri zar-zar ağlarmış.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qəzara, o şəhrin padşahı dünyadan səfər eylədi. Ol vəziri əşrəf-əyanlar padşahun yerində padşah etdilər. Vəzir çün təxt üstə qərar tapdı. Növi-ədlü ədalət eylədi ki, təmam sipah və rəiyyət onun divanına razı və xoşnud olub, ona dualar eylədilər və eyş-işrətə məşğul oldular və nəhayət, padşah oğlundan ötri şəhrlərə xəbər göndərüb, oğlunı cüstücü eylədi. Müqərrər eyləmişdi hər kim bənim oğlımdan xəbər gətürsə, dünya malından onı sərəfraz eylərəm. Çox kimsələr bu sözdən oğlanı axtarmağa getmişdilər.

Qəzara, bir şəxsin güzarı şah Behkərdün şəhrinə düşdi. Bazarı gəzərkən nəzəri oğlanun cəmali-hüsnini görüb, ayağına düşdi. Şad-xürrəm olub oğlana dedi: Ey mərdi-güzidə!

**Nəzm:**

Yeri, gül gözlüm, ey binəva, sən,
Bizim ilən sən xaçandan aşinasan.
Səbəb bilməm nədir, ey əhli-himmət,
Bənimlə qıldın izhari-məhəbbət.
Yerləşdün, zahid, imdi sən səfərdən,
Nə yerlüsən, gəlürsən sən nə yerdən?

Pəs onın ilə həmsöhbət olmağa bir xəlvətə işarə eylədi. Dedi: Sənün üçün bir müjdə gətürmişəm. Atan vəzir idi, imdi padşah olubdur. Səni çox axtarur. Neçə nəfər adamlara mal və nemət verüb və şəhrlərə göndərüb, səni cüstücü eylər və



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ol nişan ki atan demişdi səndə görüb məlum eylədüm ki, sən padşahın oğlısan. Əlhəmdi-lillah, səni tanıdum. Oğlan dedi: Ey mərdi-güzidə, haşa, sən bu sözi ki, deyirsən bən şah Behkərdin qulıyam. Bən heç atamı görməmişəm. O şəxs dedi ki, ey sərvər, səni oğurlayub padşaha satmışlar. Gəl gedək atayın yanına. Təxtə otur, padşahlıq eylə. Öz atayın pənahı ol, gəl oğlan! Bu sözdən şad olub, ol mərd oğlanı bir yaxşı yerdə pünhan eylədi. Bir neçə gündən sonra bir gecə fürsət bulub, iki səməndi-padşahlıq minüb şəhrdən çıxdılar. Gecə və gündüz yol eyləyüb, gəlüb atasının şəhrinə yetüşdilər. Padşah xəbərdar olub, əşrəf və əyan və təmam əhli-şəhr oğlanın pişvazına çıxub, ezaz-ikram ilə gətürüb, şəhrə daxil eylədilər. Padşah oğlın görüb qanı qaynadı. Şadxürrəm olub, oğlını öz yerində padşah eylədi və özi ibadətə məşğul oldı. Oğlan təxtə çıxub eyş-işrətə məşğul oldı. Gəl, necə kəlmə şah Behkərddən eşit.

Bir gün ova çıxmışdı. Bir neçə gün dolanub, şikar eylədi. Gəlüb sipah, əşrəf-əyanlar təmam bir-birindən cüda düşdilər. Padşahi-sərgardan aradan çıxub yol eylədi. Gəlüb bir dəryanun kənarına yetüb, bir gəmiyə minüb, dəryanı keçdi. Gəlüb bir karvana yetüşüb, yol eylədi. Qəzara, ol karvan da ol oğlanın şəhrinə gedirmiş ki, Behkərdün qulı idi, padşah olmışdı. Behkərd bu karvana qoşulub üftan və xizan gəlüb o şəhrə yetüşdilər. Çün vəqti-şam oldı. Behkərd naçar qalub gəlüb, bu karvanın qarşusunda yatdı. Qəzara, o gecə bir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dükan kəsülüb, keşikçilər gəlüb o gücədə Behkərdi dutdılar. Onı çox dögdilər ki, təmam ayaqlarından qan rəvanə oldı. Gündüz padşahun xidmətinə gətürdilər. Padşah əmr eylədi zindanə saldılar. Aparub qüll və zəncirə vurub, məhbus eylədilər. Bir müddət zindanda rüzgar keçürürdi.

Qəzara, bir gün gördi ki, bir gögərçin zindanxanənün divarına düşüb. Şah Behkərd niyyət edüb daşı aldı ki, bu daşı bu kəbutərə dəgsə yəqin billəm ki, bən də bu zindandan xilas olub səadətə həmnişin olam. O əgər rədd olsa, yəqin billəm ki, bənim üçün ölməkdən qeyri çarə olmaz. Bu niyyəti eyləyüb, gözdən əşk rəvan olub, daşı atdı. Qəzanın təqdirin gör ki, padşah divarın o biri tərəfindən şikarə gedirmiş. Daş o quşdan rədd olub, padşahın binaguşinə dəgdi. Padşahın qulağın parə eylədi. Padşah atdan yerə yıxıldı. Ol dəmdə qullar xəbərdar olub, Behkərdi gətürdilər. Padşah əmr eylədi Behkərdi boğazından dara çəksünlər. Cəlladlar Behkərdi bürəhnə eylədilər. Onın qulağını gördilər. Deyillər: Ey qibleyi-aləm, bu bədbəxt bundan irəlü oğırluq eyləyüb. Qulağın kəsübdürlər. Əlhal padşahına qəsd eyləyübdür. Behkərd şah biçarə qalub ağladı. Dedi: Ey qibleyi-aləm, bəni öldürmə ki, bigünahəm. Nahəq qanımı tökmə. Qiyamətdə nədamət çəkərsən. Qəza işin işlər və həm xudavəndi-cəhan şahiddir ki, oğırlıqda kəsülməyibdür bənim qulağım. Bən də bir padşah idim. Şikara çıxmışdım, bənim qulım var idi. Şikarə ox atanda qulağıma dəgdi. Qulağım üzüldi. Yoxsa padşaha



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qəsd etməmişəm. Padşah Behkərdi tanıyub ayağına düşdi. Ezaz-ikram eyləyüb öz yanında əgləşdirdi. Əl əl üstə qoyub bərabərə durdı. Atası dedi: Ey fərzəndgirami, bu kimdir ki, sən buna məhəbbət edirsən. Oğlan dedi: Ey pədəri-mehribanım, bu bənim ağam Behkərd şahdır ki, həzar-həzar mən kimi zərxəridəsi var idi və onın nami cəhana düşmişdi.

**Nəzm:**

Məkani-elm-helm neçə əltaf,
Mürüvvətlü, kərəmlü əhli-insaf.
Mən atdum avə ox bir qəsdi-nəxcir,
Qulağı düşdi ta ki, dəgdi ol tir.
Məni dutub gətürdilər həm ol dəm,
Mənim üçün ruzbəxt oldı matəm.
Qılırlar naleyi-əfğani-fəryad,
Pəs ol dəm şahi-Behkərdi qıldı azad.

Çün yoldan xəbərdar oldılar. Şah Behkərdə təhsin eylədilər.

**Beyt:**

Dedilər: Təhsin sana, ey şahi-Behkərd,
Cəhanda yoxmış sən tək cəvanmərd.

Ondan şah Behkərdi təxtə çıxarub ezaz-ikram eylədilər. Bir neçə müddət eyş-işrət eyləyüb ondan ona mali-firavan və ləşkəri-bigəran qoşub və taq, xeyməyi-xərgah, xələt və



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

əsbabi-təmam ilə öz şəhrinə rəvan oldı. Behkərd şah gəlüb genə öz məmləkətində padşah olub, təxtində qərar tapdı.

**Nəzm:**

Yamana uğramaz kim olsa yaxşı,
Yamanun yaxşıdan az ola yaxşı.

Ey qibleyi-aləm, hərgah mana rəhm eyləyüb əfv eyləsən, ümidvaram ki, sən də Behkərd kimi murada yetərsən.

Bu nəql təmam olunca gün batub axşam oldı. Genə Bəxtiyarı zindana saldılar.

## AMƏDƏNİ-VƏZİRİ-HƏŞTOM ŞİKAYƏT NƏMUDƏN PADŞAH RA

Çün sübh-rouşən oldı. Aftabi-cəhantab yer yüzin münəvvər eylədi. Şah Azadəbəxt gəlüb təxt üstə qərar tapdı. Vəziri-həştom zəmini-xidmətbus edüb dedi: Qibleyi-aləm ki bu qədər günahkarın işinə səbr eyləmək sana xoş gəlür ki, təmam şəhrdə və bazarda necə sözlər deyirlər. Vəzirlərə məzəmmət eyləyüb düşnamlar verürlər: Siz necə vəzirlərsüz ki, bir belə həramzadəni öz hökmünüz ilə padşahdan bixəbər həlak eyləməzsüz ki, hər gündə bir fəsanə ilə özin xiffət eylər ki, təmam cəhanda bədnam-rüsvay oldunuz. Necə fitnə sözlər padşaha dedi ki, padşahın rəngi zəğfəranə döndi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bəxtiyarı – dedi sultan – parə-parə edin! Ta xəlq ona inansun. Cəlladlar tiği-Misr çəküb Bəxtiyarı amadə edələr.

## CƏVABİ-DADƏNİ-BƏXTİYAR PADŞAH RA

**Nəzm:**
Həmişə dövlətün payəndə olsun,
Sana xaqani-aləm bəndə olsun.
Xudaya, bax işimə qövli-qəmmaz,
Məni çün şah qılmışdı sərəfraz.
Məni məmur edirdin sən hər işə,
Bana möhtac idi olar həmişə.
Bu gün düşdi olara çünki fürsət,
Verürlər bana səndən çox xiffət.
Olar sözi mənim haqqımı böhtan,
Gərəkdir kim, qəbul etməyə sultan.
Ölümdən qorxmursan sən bəlkə, ah,
Vəlakin, qorxuram mən ondan, ey şah.
Ölümdən gər dögül mümkün xilasım,
Mənim səndən ala Yəzdan qisasım.

Necə ki, İlan şah vəzirlərin sözinə baxub nahaq yerə Butəmamı öldürdi. Xudavəndi-aləmin anun intiqamun İlan şahdan aldı. Nahaq qan yerdə qalmaz. Padşah dedi ki, İlan



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

şah kimdir? Butəmamı neçün nahaq öldürdi? Özi necə giriftar oldı? Nəql eylə bu bəndə həm hali olsun!

## HEKAYƏTİ-BUTƏMAM

**Nəzm:**

Dedi Bəxtiyar: Ey dadiküstər,
Pənah olsun sana danayi-davər.
Rəfiq olsun sana tovfiqi-Yəzdan,
Sənün rayincə dolansun çərxi-dövran.
Həvadisdən sana asibi-azad,
Yetüşməsün sana, şah, cahandad.

Eşitmişəm ravidən bir mərdi-dana və süxənfəhm, xoştəbiət, nikuxislət varmış. Adına Butəmam vəzir deyirlərmiş. Çox malü əsbab dünyalığı varmış. Əmma bir zalım sitəmkarın şəhrində sakin idi.

Həmişə təşviş eylərdi ki, məbadə bu zalım bir böhtan ilə mənim ma-lımı alub bana azar yetürə. Belə ehtiyat ilən gəzirdi.

Qəzara, bir qeyri məmləkətdə bir padşah-İlan şah belə ədl və rəiyyətpərvər, ləşkər və sipah, təmam rəiyyəti-sultan ondan razı olub və razılıq edərlər idi. Butəmam bir gecə mal-əşyain və əhli-əyalın götürüb o şəhrdən çıxub, ol adil padşahın şəhrinə gəldi. Çox töhfələrdən götürüb padşahın xidmətinə gəldi. Dua və sənalar eylədi. İlan şah Butəmama



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

mərhaba deyüb yer göstərdi və Butəmam da oturdı. Bir az müddət aradan keçüb, təmam vəzir və vüzəraları, ərkani-dövlətləri padşah xidmətində cəm idilər və bu padşahın fərzəndi olmadığına binaən vəzirlər təmamən söhbət saldılar padşahın evlənməsindən. Padşah da bu söhbəti qəbul buyurub: Кimi məsləhət görürsiniz – dedi. Vəzirlər təmamən padşahi-Rumin qızını layiq görüb, padşaha tərif eylədilər.

**Beyt:**

Boyu tubi, gözi nərgis, yüzi gül,
Qaşı yay, kiprigi ox, saçı sünbül.
Dişi dürr, ləbləri ləli-Bədəxşan,
Mələk görsə qalur, əlbəttə, heyran.
Nigari-nazənini pür şivə əngiz,
Nihani qəmzəsi, cəlladi-xunriz.
Dəhən püstə, sözi bənzər nəbatə,
Salubdur fitnəyi-qovqa kainatə.

Vəzirlər ol qədər şirin fəsanə söylədilər ki, sultan aşiq oldı. Padşah dedi: Gərək bir xəndənisar kimsə şahi-Rumə elçi gedə. İşarə Butəmama eylədilər. Butəmama padşah dedi ki, gərəkdir ki, bizim tərəfdən padşahi-Rumə deyəsən. Bu qəmli könlimizi şad eyləyəsən. Zəmini-xidmətbus edüb səmanən və etinaən – deyüb, yüzin yerə qoydı. Padşah tədarük təmam görüb, çox simü zər əsbab ilə götürüb Butəmam yola düşdi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mənzilbəmənzil kəmma mənazil edüb, gəlüb şəhri-Rumə yetüşdi. Peşkəşi-təmam ilə padşahın xidmətinə gəlüb zəmini-xidmətbus edüb, şahə dualar eylədi. Padşah da bunun töhfələrin qəbul edüb, yer göstərüb, təhsinlər eylədilər. Bu amm səcdə qılub oturdı. Hər tərəfdən sözlər danub, Butəmam elçi olduğun məlum eylədi. Padşah dedi: Xoş gəldin, ey mərdi-süxəndan. Sən ged o güləndamı gör. İlan şaha layiq görsən və pəsənd eyləsən, mübarəkdir. Tədarük görüb sənlə rəvanə eylərəm. Butəmam ayağa durub hərəmsərayə rəvanə oldı. Gəlüb ol nigarın otağına getdi. Butəmam gördi ki, bir yerdə zərnigarun asılu pərdəni yıqub bir mürəssə təxt qoyub, təxtin üstə ol nigari-nazənin fərxəndətələt oturmuş. Butəmam gözlərin yumub ezaz ilə ikram eylədi. Sağa və sola boxmayub, başın aşağa salub, xidmətində durdı. Ol firiştə dedi: Ey niku məab, əcəb olmaz ki, lal gərəksən. Butəmam zəbani-səna və üzr eyləyüb dedi: Ey மləksirət, padşah elçisi lal və kar olmaz – deyib, dua eyləyüb qayıtdı, padşahın xidmətinə gəldi.

**Nəzm:**

Dedi sultan ana, ey əhli-himmət,
Neçün gördün bizə eylə həqiqət?
Dedi ki, Butəmam ol şəhriyara:
Göz açub baxmadum mən aşıkara.
Eşitmişəm ululardan nəsihət,
Bana atam dəxi qılmış vəsiyyət.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Göz açub baxmaram naməhrəm yüzinə,
Qulaq asma dəxi qeybət sözinə.
Gözini, əlini sən saxla zinhar,
Yetürmə kimsəyə nöqsanü azar.
Dilin döndərmə sən hərgiz yəmanə,
Dil ucundan düşər çox kim ziyanə.

Mənim nə həddim var ki, sənin təki padşahın qızına nəzər eyləyüb pəsənd eyləyim və sizün xidmətinizdə və ya İlan şahın qulluğunda ol nigarun vəsfi-cəmalın dilə gətürə bilim. Padşah bu sözdən xoşnud olub dedi: Ey dilavər, sana məlum olsun ki, hər elçi gəlsə onı hərəmə göndərürdüm. Çün ol nigari-nazənün xidmətinə gedürdi. Çox nəzər elyəyüb göftügü eylərdi. Çün mənim yanıma gəlürdi. Həddən ziyadə tərif eylərdi. Axir dözməyüb anı həlak eylərdüm. Əmma bu dəyanəti ki, səndə gördüm heç kəsdə görməmişdim. Bu gün İlan şaha qızımı verdüm. Töhfeyi-ərusi gətirdilər.

**Nəzm:**

Sənin xəmeyi-xərgah fərraş cah,
Cəmiət qul-qarabaş, qızıl əlvah.
Simü zər, ləli-cəvahir,
Vəzir, xacə, fərraş, şatir.
Gəcavə içrə girdi ol simbər,
Olara qoşdı həm cəmi ləşkər.
Çalundı təbli-kusi-şadi,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Fəraqül-bal, qızın rəvanə qıldı.

Pəs Butəmam ol əsbab tədarükin İlan şahın xidmətinə göndərdi. İlan şaha müjdə apardılar və özi, cəmi vəzir-vəkillər və ərkan qızun pişvazına çıxub, qızı ol təmkin, tədarük ilə şəhrə daxil eylədilər. Padşah onun ilə eyş-işrətə məşqul oldı və Butəmamə xələti-faxirə verüb sərəfraz eylədi. Gündən-günə məhəbbət ziyadə eylədi. Vəzirlərin cigəri qan oldı. Dedilər, bir qədər çarə eyləmək gərək. Vallah, qəmdən biz həlak oluruq. Axirüləmr genə çarə gördilər. Padşahın iki müqərrəb qulları var idi. Həmişə padşaha məhrəm idilər. Padşah da buların xatirin çox istərdi. Vəzirlər bu qulamları gətürdilər, çox yalvardılar. Dedilər ki, ey müqərrəbi-dərgahlar, bizimçün ruzi-rouşən tar olubdur. Əgər siz bizə iltaf və ehsan eyləyəsüz, bizim müşkülmüz asan olur. Dedilər: Ərkani-dövlətlər, əgər qulluqunuz var isə buyuruz, canə minnətdür, yerinə yetürək, ey əzizlər. Çünki siz şah xidmətinə müqərrəbsüz. Bir vəqt fürsət bulub şah xabi-istirahətə məşqul olanda bir-birinizə deyərsüz ki, hər kimin əsli napak olursa, canında qorxu olmaz. Butəmam kimi nakəs mərd şahın xidmətində xəyanət eylər. Heç kimsə qorxusundan aşkar eyləyə bilməz. Məgər bu sözləri padşah eşidüb Butəmamı həlak eylər.

Pəs bir qədər simü zər bunlara verub və bunlar da qəbul eylədilər. Gəlüb bir guşədə fürsət tapub xəlvətxanə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qapusunda əgləndilər. Hər tərəfdən bir-birinə sözlər danışub, bu sözləri padşaha eşiddürdilər. Padşahın qulağı bularda. Çün bu haldan padşah xəbərdar olub, qəzəbnak oldı. Bulardan xəbər aldı. Müqəddəmini padşaha təqrir eylədilər. Padşahın rəngi zəğfəranə döndi. Əmr eylədi ki, Butəmamı gətürdilər. Dedi: Ey bədəsl, sana külli ixtiyarımı verdüm. Səni sərəfraz eylədüm, ey bidəyanət. Bana xəyanət eylərsən? Dedi: Ey sultani-ədl, divan eylə, əgər şayət olmasa, bana siyasət etsən rəvadır. Yoxsa düşmən sözinə baxub bana siyasət eylərsən, sonra peşiman olursan. Nahaq qan yerdə qalmaz. Cənab rəbbül aləmin mənim qisasımı səndən alur. İlan şah bu sözlərə baxmayub Butəmamı qətlə yetürdi. Andan Butəmamı dəfn eylədilər. Vəzirlərin mətlubi hasil oldı. Anlar
üçün o gün bayram oldı.

Əmma padşah qəmgin olub Butəmamı öldürəndən sonra sarayına daxil oldı. Ol güləndamı gözdən saldı. Əmma bir gecə çox qəmnak olub, gecə yarısınacən bidar oldı. Durub gecənün bir vəqtində hərəmdən çıxub divanxanəyə gəlürkən ol oğlanlarun yanından keçirdi. Gördi ki, qullar köftügü eyləyüb dedilər ki, çox yəman etdük. Ol miskini nahaq yerə ölümə verdük. Belə biçarənün həqqində sültanə dedük. Aya, bilməzük qiyamət güni halımız necə olur? Bu sözləri padşah eşitdi. Qulları çağurub dedi: Bəni bu sirdən hali edin. Qullar dedi: Ey sultani-sərvər, vəzirlər bizi gümrah eylədi. Bizə bu



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qədər simü zər verüb yalvardılar və bunu eyləyək. Bizə böhtanı təlim eylədilər. Biz də olarun sözinə guşdar olub sənin xidmətində ona böhtan dedük. Onı bitəqsir həlakə verdük. Əmma bilürük o məzlumin qanı bizləri dutacaqdır. Çün bu sözləri padşah eşitdi, səbr eylədi. Çün sübh-rouşən oldı. Vəzirləri hazır qılub ənvai-siyasət ilə həlak eylədi. Ondan sonra qullarun boynını urdurdı. Ondan peşiman, pərişanhal olub, hərəmxanəyə daxil oldı. Genə ol mələkmənzər ilə məhəbbət qatdı və ol banuyi-möhtərəm padşaha dedi: Ey qibleyi-aləm, neçün Butəmamı oldürdün? Neçün mənim ilə belə eylədün? Aya, mənim təqsirim nə idi və neçün qəmginsən? Padşah bu sözi ona izhar eylədi. Çün ol pərivəş bu sözi eşidüb, ağlayub dedi: Ey qibleyi-aləm, əlhəmdü əlminnətə, necə uzun bu sirdən hali oldun ki, bəndə bir təqsir yoxdur. Bu sözdən ol nigar rəncidəxatir oldı. Könlündə padşaha düşmən oldı. Bir neçə gündən sonra padşahın aşına zəhər qatub, padşah canın cəhani-afərinə təslim eylədi. Butəmamın nahaq qanı yerdə qalmadı.

Əlhal, ey qibleyi-aləm, əgər sən də vəzirlərin sözinə baxub məni öldürsən, ümmidim var ki, cənab rəbbül-aləmin mənim nahaq qanımı yerdə qoymaya.

Bu nəql təmam olunca gün batdı. Genə Bəxtiyarı zindana saldılar.

## DƏR BƏYANİ-AMƏDƏNİ-VƏZİRİ-NOHOM ŞEKAYƏT



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## NƏMUDƏN

Çün sübh-rouşən oldı. Aftabi-cəhantab yer yüzin münəvvər eylədi. Vəziri-nohom ayağa durdı, cəmi vəzirlər ilə padşahın hüzurinə gəldilər. Dedilər: Ey sultani-sərvər, aya, bu qədər səbrü təhəmmül eyləmək neçündür? Gərək sən munı parə-parə eyləyüb ətin itə verəsən ki, cəmi kəslərə ibrət ola, ta ki, bu gün ol nakəsi parə-parə eylə və ya bizi qətlə yetür. Hamunı birdən tərh eyləyüb, varub divanxanədən çıxdılar. Gəlüb hərəm olan səraya yetdilər. Bir ərizə hərəmə yazdılar. Bu məzmun ilə ki, ey banuyi-hərəm, bu bədbəxtin ucundan əcəb rüsvayi-aləm oldunuz. Sultan təhəmmül eylər, hər gün bir söz ilə və bir fəsanə ilə özin hifz eylər. Daxi bizim mundan ziyadə sənin rüsvaylığına tab-taqətimiz qalmadı. Padşah hərəmə daxil olanda siz də səy eyləyün və bu bədnamı həlak eyləyün və ya bizləri qətlə yetürün. Bu sözdən banuyi-hərəm xəbərdar oldı. Xatiri müşəvvəş və könli qəmgin oldı. Çün padşah divanxanədən qayıdub hərəmə daxil oldı. Xatun giryan padşahın xidmətinə gəldi. Padşah dedi: Ey güləndami-gülüzari-gənnət, neçün məlum, giryansan? Xatun dedi: Ey taci-sərəfraz, bəndə səbrü aram qalmadı ki, rüsvayi-zəmanə olmışam. Bir belə bədəsl, nadanı əgər həlak eyləməsən, çarə budur ki, məni öldürəsən, özimi həlak edüb bu qəmdən xilas olam və bəzi tərizyanə sözlər padşaha dedi ki, padşah sər-dimaqdan çıxdı. Qəzəbnak



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olub, qayıdub təxtə çıxdı, əgləndi. Əmr eylədi ki, Bəxtiyarı gətürün. Çünki gətürdilər, padşah dedi ki, ey mərdi-bədəsl, napak, sana ölmək müqərrər oldı. Bu gün hərəmdən təhqiq etdük. Sən hərəmə xəyanət eyləmisən. Bu gün sənin həlak olmağına maneə yoxdur.

## CƏVABİ-BƏXTİYAR PADŞAH RA

Dedi bəs Bəxtiyar, ey şahi-adil,
Eşitməz qövli-zən kim olsa aqil.
Həzər qılmam ölmədən, çəkmərəm bak
Ki, çün övrətdə olmaz əql, idrak.
Həmişə övrət eylər fikri-hiylə,
Olur hər fitnə övrətdən vəsilə.
Deyir daim salamat ola canı,
Dəxi fərq eyləməz yaxşı-yəmanı.
Necə ol zən ki, etdi neçə fənd,
Özi oğlın verdi qətlə, ey xudavənd.
Özi öz oğlına eylədi böhtan.
Haçan övrətdə olur əqlü iman?

Padşah dedi: Ol zən kimdir, necə fitnə eylədi? Özi öz oğlına necə böhtan eylədi, oğlın qətlə yetürdi? Onun halın nəql eylə!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## HEKYƏTİ-ZƏN BE PADŞAH

**Nəzm:**

Dedi bəs Bəxtiyar, ey şahi-xaqan,
Əlində daim olsun hökmü fərman.
Var idi bir müəzzəm padşahı,
Beşəhri-Misr onun təxti-külahı.
Fəraqət müttəsil, xoşnud, eymən,
Yox idi heç tərəfindən ona düşmən.
Qayırmazdı qoşun ol mərdi-bibak,
Məvaciblər verüb eylərdi imsak.
Nə bir qanun, nə bir dəftər, nə divan,
Rəiyyət müztərr, ləşkər pərişan.

Əmma padşahi-Misirin vəziri var idi. Qədimi-kuhənsal, sahibi-dəyanət idi. Кardan və xirədmənd idi. Hərçənd padşaha nəsihət eylərdi, qəbul eyləməzdi. Axirüləmr, vəzir fikir eyləyüb dedi ki, padşahun fərzəndi yoxdı. Necə kim hərəmləri var, bularun uşağı olmazdı. Durub padşahun xidmətinə gəlüb, dua və sənalar eyləyüb dedi: Ey qibleyi-aləm, gərəkdir padşahun hali-həyatında bir fərzəndi-ərcü-məndi ola ki, xəlayiq ona ümmidvar olub rəiyyət və ləşkərün ixlasalar ilə padşaha ziyadə etibarlar göstərələr.

Padşahi-Rumin bir mələkmənzər qızı var idi, misli-afitab tabandır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Nəzm:**

Cəmalı dilfirib, hüsni ziba,
Dodağı filməsəl, gülbərgi-rəna.
Səhi qəddi, səmənbuyü səmənbər,
Pəritələt, cəbini hurimənzər.
Əgər görsə cəmalın huri-qılman,
Olur pərvanə tək sərgəştə, heyran.

Mübarək qızdur, fərxəndə cəmalı pərtövindən xaneyi-ənvər zi-
yadə eylədi. Ovsafi-tərif pəs andan eylədi: Sultana tətliq gərək. Sultan ala ol hurizadı, həqqə bağlıya sidqi-etiqadı, məgər hasil ola ondan bir oğlan ki, səndən çün ola amini-xülqən. Çün bu sözlərdən padşah xoşnud olub, əmr eylədi ki, padşahi-Rumə bir namə yazdılar və çün cəvahir və simdən barxanə eyləyüb, elçi eylədilər və elçilər şəhri-Rumə rəvanə oldılar və çün şəhrə daxil olub, gəldilər qeysəri-Rumin xidmətinə peşkəşlərin keçürdilər. Qeysari-Rum buların peşkəşin qəbul eyləyüb, bulara məhəbbət eylədi və çün buların elçi olduğun məlum eylədi. Cəvabnamə yazdı. Bu məzmun ilə ki, ey sultan, biz tərsayük, siz müsəlman. Əgər dinündən dönüb, müshəfi yandırıb, zünnar bağlasan sana qızımı verürəm. Canimə minnət qoyarsan. Vallah, buları edəcək olmasan, sana qızımı verməzəm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çün elçi qeysəri-Rumin naməsin padşahi-Misrə yetürdi. Çün namənin məzmunundan müttəle oldı. Əmr eylədi ki, xəzinəni açdılar və ləşkərə məvacib verdilər və təmam sərhəddə namə yazub bir neçə gündən sonra ol qədər ləşkər cəm eylədi ki, ruyi-zəmin təngə gəldi. Qoşunı götürüb Rumə rəvan oldılar. Sultani-Rum da xəbərdar olub, qoşunı xəbərdar eylədi. Ləşkərin götürüb şəhrdən tışra çıxub, iki padşah və ləşkəri bərabər durub, təbil dögildi.

**Nəzm:**

Yığıldı cəmi tərsayi-şümarə,
Dögildi təbil, ta kusü nəqarə.
Bərabər durdı tərsa və müsəlman,
Gögə yetdi xüruşi-bani-əfqan.
Çün oldı yüzbəyüz qaplan ilə şir,
Qamu əldə sənai-şiri-şəmşir.
Qübari-tirdən xurşidi-taban,
Sanasan qopdı qiyamət bulardan.
Pəs açıldı bulardan çeşmeyi-xun,
Qızıl qan ilə meydan oldı gülgun.

Əlqissə, dini-islam qüvvət tapub, ləşkəri-tərsa basıldı. Ləşkər təmam qaçdı. Qeysəri-Rumi dəstbəstə məcruh, xəstə, padşahi-Misirün xidmətinə gətürdilər. Padşahi-Misir qeysəri-Rumə təklif eylədi. Qeysərə tövfiqi-alihyar olub, zünnarın parə-parə edüb, şəhadəti-ixlas ilə imanə gəldilər və



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qızı da padşahi-Misirə iqrar eylədi. Padşahi-Misiri şəhrə daxil eyləyüb neçə gün eyş-işrət etdilər.

Bir neçə gündən sonra padşahi-Misir ləşkərin götürüb öz şəhrinə rəvanə oldılar və özi gəlüb qızun tədarükinə məşqul oldı. Əmma gəl, neçə kəlmə qızun hekayətindən eşit. Bir neçə illər mundan irəlü padşah qızı öz əmisi oğlına vermişdi. Qazi əqdi-nigah oxumuşdı. Qız razı olmayub ol cəvanə cəvab eyləmişdi.

Qəzara, bir gün bu oğlan bağda gəzərkən bu nazəninə rast gəlüb çox ilhaq, ilhah ilə yalvardı. Qız hər gün bir ərz və bəhanə gətürüb, gah düşnam deyüb çarə olmadı. Axir naəlac qalub, oğlan ilə ülfət qatdı.

**Nəzm:**

Qızun getdi əlindən ixtiyarı,
Könüldən oğlanun səbrü qərarı.
İradə çox, rəqib səgtəbiət,
Müyəssər vəsli-canan, cayi-xəlvət.
Cana şəhvət odı saldı hərarət,
Götürdi qızdan ol mehri-bəkarət.
Uşağı qaldı ol dəm düxtəri-şah,
Bu hala olmadı heç kimsə agah.

Çün hamilə oldı, kəmanə düşdi və bu sirri-pünhanı dayəsinə məlum eylədi. Cümlə sərgüzəştəni dayəsinə nəql eylədi. Çün dayə bu sözdən xəbərdar olub dedi: Ey



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

mələkmənzər, qəm çəkmə. Vəqti-axirdə bən buna əlac eylərəm. Həmişə ol dayə o nazənin ilə həmnişin olub riayət eylədi, əmma dayə də hamilə olmışdı. Qəzara, bu sirdən heç kimsənə xəbərdar olmayub ta vədə yetüşdi. Qızdan bir oğlan vücudə gəldi. Nə oğlan! Bəlkə bir xurşidi-taban. Pəs oğlanı dayə aparub pünhan eylədi. Ol gün keçüb gecəsi dayə həmlin vəz eylədi. Bir qız vücudə gəldi. Qızı bərtərəf eylədi. Oğlanı qızun əvəzinə təsərrüf eylədi. Bir kimsənə bu sirdən xəbərdar olmadı. Məkr, hiylə ilə bunlar oğlanı aldı. Ta bu oğlan onbeş yaşına yetdi. Bunın cəmalının tərifi dillərə dastan oldı.

**Nəzm:**

Кi çün bəsləndi, yetüşdi kəmanə,
Boyu ənbər, gözi nuri-nihanə.
Qaşı yay, kiprigi ox, gözi cəllad,
Görürsə kimsə yüz qəmdən olur şad.
Dişi dürr, ləbləri ləli-Bədəxşan,
Dili bülbül, sözi yaqutü mərcan.
Çün adı xəlq içində oldı məşhur,
Deyirlər Dayə oğlı ana məşhur.

Oğlana Dayə oğlı deyüb ismi-məşhur oldı. Çün qeysəri-Rum qızun tədarükini görüb, Misirə rəvanə eylədi. Ey dayeyi-cəhan, bir fikir bu babdə etmək gərək. Əlhal, dayə bir hiylə-məkr eylədi. Padşahi-Misir bu düxtəri düxtər sandı. Məkr



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olmağı bilmədi, təsərrüf eylədi. Müştaqmənd olub gecə və gündüz zövqü səfayə məşğul oldı. Əmma ol nigarı da sultan çox istərdi. Nəhayət, həmişə fikri oğlının yanında idi. Əmma bir gün hərəmdə padşah dedi: Bizə oğlan bədiülcəmal lazımdır ki, həmişə xidmət edüb, şərti-ədəbi yerinə yetürüb, bizə mülazim ola. Ol mələkmünzər dedi: Ey qibleyi-aləm, babamun bir qulı var. Belə vəcih, zirək, əqlmənd ki, burada bu əmrə laiqdır. Ona Dayə oğlı deyərlər. Əgər padşah babamdan istəsən müzaiqə etməz. Sizün xidmətinizə göndərür. Padşah bu sözdən xoşnud olub, bir namə qeysəri-Rumə yazub oğlanı istədi. Sultani-Rum da oğlana xələt, libasi-faxirələr verüb rəvanəyi-Misir eylədi. Padşahi-Misir ona xələtlər verüb məclisə pişxidmət eylədi. Oğlan da bir surəti-şərti-xidmət yerinə gətürdi ki, padşah və əhli-məclis onun fəhm-fərasətinə təhsin dedilər. Əmma heç müyəssər olmazdı ki, ol nigari-nazənin, huripeykər oğlanı görə. Qəzara, bir gün xəlvət yerdə oğlanı görməgə fürsət tapub, oğlanı görüb, abi-həsrət gözindən axıb, qolların oğlanun boynına salub iki gözindən öpüb, oğlan ol huripeykərün əlindən qurtarub qaçdı.

Qəzara, bir xacə buları gördi. Ol mələkmüzill peşman olub, pərişanhal oldı. Dedi: Gördün ki, özim rüsvay, bədnam oldum. Bu sözi xacə padşaha xəbər verürsə, mənim halım necə olur? Məsləhət odur ki, bən özim padşaha xəbər verim, məgər canım salamat qala. Çün padşah hərəmə daxil oldı.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nazənün dad eyləyüb dedi: Ey şahi-aləm, bu gün bir qulami-bədnihat bana əl uzatdı, küstaxlıq eylədi. Zinhar-zinhar, məni həlak eyləmə. Padşah bu sözdən aşüftəhal, şuridəxəyal olub qeyzləndi. Əmr eylədi ki, oğlanı gətürdilər. Dedi: Ey kəmrahi-şum, bədəsl səni bərgüzidə eylədüm və hörmət, ezaz ilə mü-kərrəm eylədüm. Bana xəyanət edüb hərəmi-möhtərəmə əl uzadubsan. Müqərrər eyləyim səni parə-parə eyləsünlər. Oğlan dedi: Ey şahi-cəhani-aləm, sirrül xəfiyyət rəbbül aləmindir. Allaha məlum ki, bənim heç günahım yoxdur. Bu məində mənim güvahım vardur. Padşah dedi: Güvahın kimdir? Oğlan xacəni göstərdi. Padşah xacədən əhval sordı. Necə görmişdi şərh eylədi. Bu qulami-mahi-tələtdə təqsir yoxdurur. Padşah bu sözdən mütəfəkkir oldı. Oğlanı zindanə göndərdi. Xatını da gözdən saldı, fikir-xəyal eylədi. Könlinə gətürdi ki, məbada bu qulam atası evində olan vəqt bir-birinə xahan idi və bu hekayət xəlq arasında məşhur oldı. Bir gün xatun padşah xidmətində giryə və zar-əfğan edüb sövgəndə – yad etdi ki, bənim günahım yoxdur. Bu oğlan bana xəyanət eylədi və məni xəlq arasında rüsvay eylədi. Bu oğlanı parə-parə eylə və məni də bu minnətdən qurtar. Əmma ya odı ki, bən özimi öldürrəm. Bu sözdən padşah qəzəblənüb bir qulamə müqərrər eylədi ki, apara oğlanı tiri-zəhri-alud ilə öldürə. O qulam nikumünzər oğlanı zindandan çıxarub, bunun hüsn-ruyinə və ləfzi-şəkkərinə nəzər eyləyüb abi-həsrət gözindən rəvanə oldı. Dedi ki, əgər padşah məni



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

zərrə-zərrə eyləsə də, mən bu cəvani həlak eyləmənəm. Oğlanı götürüb bir cayi-xəlvətdə pünhan eylədi və pirahənin xuni-alud ilə padşahun xidmətinə gətürdi. Əmma padşahun könli ol nazənindən rəncidə oldı və xəyal eylədi ki, bir sahibkəmal olsaydı və məni bu sirdən xəbərdar eyləyəydi. Əgər təhqiqi-övrətdə xəyanət olsaydı, onu da həlak eylərdim.

Qəzara, padşahun bir dayəsi var idi. O, nigarın xidmətinə gəlüb, onı çox şuridəhal, müztərib-əhval görüb soruşdu ki, ey banuyi-cəhan, neçün belə qəmgin və pərişansan? O mələk dedi ki, ey dayeyi-cəhan bir pünhani-qəm bana ariz olub. Əgər bir kuhsarə rücü olsaydı misli mum təki olurdı. Dayə sovgənd-yad edüb dedi ki, banuyi-hərəmsən. Bəni bu sirdən xəbərdar eylə. Bu dərdə əlac eylərəm. Ol mələki-giryan dedi: Ey madəri-cəhan, bu sirri faş eyləyə bilməzəm və həm əlac eyləmək olmaz. Dayə «Quran» götürüb sovgənd-əzim-yad eylədi ki, sən bu sirri bana elam eylə. Hər nəhv olsa bən bu babində bir fikir edüb ona əlac eylərəm. Ol mələkafaq guyan müqəddiməni əvvəlindən axirinədək dayəyə nəql eylədi. Necə ki, atası evində şövhərə getdigin, hamilə olub oğlan doduğın və dayəsi məkr edüb oğlanı bələdügün və padşahi-Misirə ərus olan gecə hiylə edüb qız olduğun, genə oğlanı Rumdən öz yanına gətürdügin, öpən yerdə xacə görüb özi can hövlindən oğlana böhtan etdigin və padşah nəzərindən saldıqın təmam dayəyə nəql eyldəi. Zar-zar ağladı. Dayə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dedi: Ey huripeykər, səndə təqsir yoxdur, vəli təqdirə çarə yoxdur və atan səni ərə vermiş, əqdi-nigah eyləmiş, səndən oğlan olub. Əgər padşah əvvəlindən hali olsaydı, rəncidə olub ol cəvanı öldürməzdi. Əlhal sana dəlil təlim eyləyim. Gecə sən özini yuxuya salub, sənin yanına gələndə gözini açmayub yuxuda dildə cari ilə hər nə müqəddimə ki, başına gəlübdür əvvəlindən axirinədən şərh eylə. Padşahı inandurub, könli səndən xoşnud olub bilsün ki, səndə təqsir yoxdur. Hərçənd öliyə çarə olmaz. Sabit məhəbbət və şəfqət ziyadə olur. Ol dayənün sözin və nəsihətin bəgənüb xoşnud oldı. Ondan durub padşahun xidmətinə gəlüb, dualar eylədi. Dedi: Ey padşahi-aləm, neçün belə məlulsan? Eşitmişəm hərəmi-möhtərəmdən mükəddər olubsan. Padşah dedi: Ey madəri-cəhan, bənim fikrim qeysəri-Rumin qızındadır. Bir belə nədamət bənim üçün olubdur. Qulami-növcəvanı həlak eylədim. Aya, bilmədüm təqsir kimdədir. Əgər bu hərəm də xəyanət eyləsəydi, bunı da həlak eylərdüm. Onunçün həmişə təfəkkürxatirəm. Dayə dedi: Ey padşahi-sərvər, eşitmişəm ululardan ki, hər kəs yuxuda sinəsinə bir hüdhüd tükü qoysa, sirri-pünhanı aşkar söylər. Məsləhət oldur ki, bu gecə sən də ol nigar yuxuda olan vəqtə onun sinəsinə bir hüdhüd tükü qoyasan. Ol sirri-nihanı aşkar edə. Sən də yaxşı və yamanı bilüb bu kəmandan çıxub xatircəm olursan. Padşah dayənün sözündən xoşnud olub, gecə ol nigarın yanına gəlüb, ta ol qədər səbr eylədi ki, mələk özin yuxuya saldı. Gözi yuxıda,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

könli oyaq. Padşah bixəbər gəlüb bir hüdhüd tükü ol nigarun sinəsinə qoydı. Mələkafaq bir ah çəküb, ləli-şəkkərbarını göftüguyə gətürüb, müqəddəməni şərh eylədi. Necə ki, olmışdı əvvəldən ta axirinədən nəql eylədi ki, verdüm qətlə mən fərzəndi-dilbəndi ki, məndən zar ola o. Xudavənd, onunçün mən ölüm verdüm. Oğlan ki bəndən bədgüman olmaya. Sultan oğul getdi əlimdən. Qalmışam zar əcayib, təxtə mən oldum giriftar. Əgər getdi oğul, çəkdim nədamət həmişə saf ola. Sultan səlamət eşitdi sərgüzəştəni, çü ol şah çağırdı. Yuxusundan etdi agah, çü xabi-məsləhətdən oldı bidar. Dedi Sultan ki, ey yarü vəfadar, eşitdim hər nə etdin, hər nə təqdir bilürəm. Səndə dəxi yoxdı təqsir. Əvvəldən əgər bu sirri bana desəydin və izhar eyləsəydin səndən rəncidə olmazdım və heç ol cəvanı bigünah öldürməzdüm. Oğlandan ötri padşah və ol mələkmünzər baş dutub şivən eylədilər. Buların səsindən təmam əyanlar bidar olub padşahın xidmətinə gəldilər, şivənlər eylədilər. Əmma ol qulam böhtan eyləmişdi, xəbərdar olub bir dəst libas oğlana geydürüb səməndi-badpayə mindürüb padşahın xidmətinə gətürdi. Padşah oğlanı görüb xoşhal oldı və oğlanın sərü ruyindən busə edüb, oğlana çox mal-əmlak verüb azadə eylədi. Ondan eyş-işrətə məşğul oldı, möhnəti-qəmdən azad oldı. Misir şəhrinin padşahlığın da ona verüb, təxt-tacı oğlana təslim eylədi. Özi ibadətə məşğul oldı.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu nəql təmamə yetincə gün batub, axşam oldı. Genə Bəxtiyarı zindana müqərrər eylədi.

## AMƏDƏNİ-VƏZİRİ-DƏHOM ŞİKAYƏT KƏRDƏN PADŞAH RA

Gecə getdi, gündüz oldı, səhərgah gəlüb şah yanına ol bədxahlar genə eylədilər fəryad, qövqah. Hərə bir söz dedi, ol qövmi-bibak ki, sultan xəşimgin oldı. Qəzəbnak padşah buyurdı, Bəxtiyarı gətürdilər. Dedi: Ey napak, bidəyanət, hər gündə bir fəsanə ilə bana söz deyərsən, qərib özini həlaklıqdan qurtarursan. Bu gün ömrünün təmam olan günüdür. Bu gün sana imkan yoxdur. Əmr eylərəm səni parə-parə eyləsünlər ki, təmam cəhan xəlqinə ibrət olunsun ki, bir belə xəyanət eyləməsünlər.

## CƏVABİ-DADANİ-BƏXTİYAR PADŞAH RA

Dedi bəs Bəxtiyar, ey pürgin,
Fəda olsun yolunda cani-şirin.
Ölürəm, gər sənün əlində, allah,
Müqərrər eyləmiş əhkam, allah.
Əgər yoxdur bana tədbirü çarə,
Nola qurban olum mən şəhriyarə.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əgər belə dögül, təqdiri-allah,
Məni sən öldürə bilməzsən, ey şah.

Necə ki, padşahi-Çin oğlını öldürə bilmədi. Təqdirə var idi, oğlı onı öldürəcək idi. Çox səy eylədi öldürə, təqdirə tədbir olmadı. Oğlının əlində həlak oldı. Padşah dedi: Çin padşahı necə tədbir eylədi ki, oğlın öldürə bilmədi. Axirüləmr, oğlının əlində həlak oldı. Nəql eylə görək!

**Hekayəti-padşahi-Çin**
**Nəzm:**
Dedi pəs Bəxtiyar, ey şahi-xuban,
Pənahında səni saxluya Yəzdan.

Eşitmişəm rəvayətdən Çinü Maçin şəhrində bir müəzzəm padşah var idi. Çox mülk-malı və xəzinələri və cah-cəlalı var idi. Heç fərzəndi yox idi. Həmişə fikir-xəyal çəkir idi ki, aya, bəndən sonra bu təxt-taca kim sahib olacaq. Qəzara, bir gün bir dərvişi həqq onın yanına öz tərəfindən yolladı, onın xidmətinə. Müşərrəf oldı. Gecə padşaha mehman oldı. Hər gecə dərviş ilə danışur idi. Bir qədər dəfi-qəm olurdı. Bir gün bu dərviş bundan əhval xəbər aldı. Padşah dedi: Ey mərdi-əzizim, mənim heç tərəfdən bir məlal, mükəddər xatirimdə yoxdı. Nəhayət, heç fərzəndim yoxdur ki, məndən sonra şahnişan olub təxt-tacıma təsəllüt tapa. Həmişə ənduh, qəm



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

və fikir-xəyal onın içündür. Dərviş dedi: Ey qibleyi-aləm, lazimeyi-dərgahi-zülcəlal oldur ki, sən xəzinəni onın yolında ehsan eyləyəsən. Fəqr-füqərayə məsrəf eyləyəsən. Yetimə və miskinə rəhm edəsən. Allah təaladan istianət – fərzənd eyləyəsən. Əlbəttə, qadiri-ilahi səni naümmid eyləməz. Bu söz padşaha çox xoş gəldi. Əmr eylədi xəzinənin ağzını açdılar. Padşah öz əli ilən simü zərdən və cəvahirdən bir qədər miskinə və möhtaca ənam eylədi, onlar da qəbul eylədilər və xoşnud oldular. Pərvərdigari-zülcəlal padşahın ehsanın xeyir edəsən. Fərzəndi istianət eylədilər. Cənab əqdəsi-ilahi padşahın ehsanın qəbul edüb, fəqrlərin duası icabətü məqbul olub, cənab rəbbül-aləmin padşaha vəqti-vədəi təmam oldı. Bir oğlan qəmərtələt, xurşidsifət dünyayə qədəm basdı. Padşah çox xəzinə, mal, əsbab ehsan eylədi. Allaha şükr eylədilər. Əmr eylədi münəccimlər gətürdilər. Padaşah dedi: Ey münəccimlər, bu oğlanın taleyini yoxlayun. Görək nə görürsüz. Hər nə görsəniz bana təqrir eyləyün. Münəccimlər qürə atub oğlanın taleyinə rəml çəküb dedilər: Ey qibleyi-aləm, bu şahzadənün taleyindən bir zad görünür, əmma təqdirinə aciz olmuşux. Deyə bilməzük. Vəleykin naçar qalmuşuq ki, gərək ərz eyləyək. Ey qibleyi-aləm, bu fərzəndgiraminün yeddi yaşında bir qədər (….?) vardur. Əgər ondan xilas olmasa, əlbəttə, sultan oğlının əlində həlak olur. Bu sözləri münəccimdən eşidüb, gözləri yaş ilən doldı. Məəttəl və sərgərdan qaldı. Nə oğlana qıyub öldürə bilmədi,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

nə öz canına. Əmma əmr eylədi, bir biyabanda bir quyı var idi. Bir dayə dutub, oğlana ol çahun içində şir verüb, pərvəriş eylədi. Padşah bir kimsəyə əmr eylədi ki, həmişə olarun halundan xəbərdar olsun. Əlqissə, oğlan yeddi yaşına gəlüb, bir gün bir sarban şütürlü gəzir ikən bir aslan buna rast gəlüb. Sarban qaçdı. Dəvəni qovub ol quyunun içinə iksi də düşdilər. Aslan dəvəni yırtub yeməgə düşdi. Ol övrət də həlak oldı. Oğlan allaha təvəkkül bağlayub, həqq təala ona yar olub, həzar-həzar müsibət ilən ol çahdan özin dışra çıxarub qaçdı. Şütürban dəvəni axtarmağa gəlüb, ol kuhsarı cüstücu eylədi. Dəvəni tapmayub gördi ki, bir oğlan bir guşədə pünhan olubdur.

**Nəzm:**

Nə oğlan, bəlkə bir dürri-yeganə
Ki, misli gəlməmiş dəxi cəhanə.

Oğul deyüb onı sinəsinə basub üzindən öpdi. Götürüb evə gəldi. Ona ezaz, təkrim eyləyüb özinə fərzənd eylədi. Bu haldan kimsə agah olmadı. Məgər bir gün padşah bir neçə adəm müqərrər eylədi ki, oğlanı quyudan çıxarub gətürsünlər. Bir neçə vəzir-əyanlar gəlüb o çahda oğlanı görmədilər. Cüsütcu edüb bir neçə sümük tapdılar. Nişanə üçün padşahın xidmətinə gətürürlər. Padşah bu əhvalı görüb oğlandan ümmidi kəsdi.

Əmma oğlan bir dilavər pəhləvan oldı ki, rübi məskunda bərabəri olmadı. Əmma özilə yenə bir neçə adəm yoldaş



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tapub, hər yanda karvan eşidüb, gedüb karvanı dağıdub, malın tarac eylərdilər. Heç kəs bir çarə eyləyə bilmədilər. Gəlüb padşaha ərz eylədilər ki, ey qibleyi-aləm, bir neçə hərami peyda olub, yolları bağlayub, karvan dağıdub, xəlqə nöqsan edürlər. Padşah qəzəbnak olub ləşkəri firavan eylədi. Onların üstə getdi. Oğlan xəbərdar oldı. Dedi: Ey yaranlar, bu gün mərdanəlik günidir. Heç kəs dünyadə baqi qalmaz. Cübbəcuş özinə hazır qılub əllərində tiği-bürran ilə bunlara həvalə oldılar. Qəzara, padşah oğlana rast gəlüb, padşahı tiği-Misr ilə dünimə eylədi, öldürdi.

Əlhasil, mundan sonra padşah əmr eylədi: Aparun Bəxtiyarı darə çəkün! Ol vəqt Bəxtiyarı gətürdilər, ta kim, darə çəksünlər. Qəzara, o günki gündə həramilər o şəhrə daxil oldılar. Gördilər ki, təmam şəhr əhli gedürlər. Bunlar xəbər aldılar ki, nə vardur belə sürət ilə gedirsüz. Bunlar dedilər ki, bu gün padşah, bir adam var darə çəkəcək və həramilər qəsdi-tamaşayə gəldildər. O halətdə Ziyad hərami gördi ki, bunun oğlını darə çəkirlər. Ol vəqt Ziyad hərami özin padşahın qulluğuna yetürdi. Ərz məqamında durub ərz eylədi. Dedi: Ey qibleyi-aləm, allah rizasına nə qədər mal istəsən məndən al, bəndənin dərdinə dəva eylə. Padşah çün bu sözi eşitdi. Buyurdu ki, necə oğlanı ol vəqt Ziyad hərami o yerdə ki onı tapmışdı və onın işlərin təmam nəql eylədi. Padşah çün bu sözi eşidüb, əmr eylədi, paltarın çıxartdılar. Padşah özi gəldi öz bazubəndini görüb, öz əli ilən bağlamışdı öz oğlunun



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qoluna. Əmr eylədi təvizi açdılar. Padşah çün bunı görüb oğlını tanıdı. Boynun qucaqlayıb, üzündən və gözündən öpdi. Tacını başından götürüb, bəxt başına qoyub, padşah eylədi. Təmam divan və dəftəri və hesabı və ləşkəri və əşrəf-əyanları təmami Bəxtiyara tapşurdı. O, on vəziri kəşan-kəşan ilə gətürdi, təmamən qətlə yetürdi. Ondan hər kəs munun haqqında bir gədalıq eyləmişdi, onlaru da cəhənnəmə vasil qıldı.

Atasıyla və anasıyla muradə yetdi. Neçə bəndəyi-möminlər təmam muradə yetsün. Amin, ya müin.

Təmmətül qissətə fi yövmi-cəharşənbə əla yədi-Nəsib ibni-Əli 1293.

Yazıb ……………….. 1293 (hicri), 1876 (miladi).

Bunu yazdum yadigar olmaq üçün,
Oxuyanlar bir dua qılmaq üçün.
Əl xəttü baqi vəlümrə fani,
Əl əbdə asi vərrabə vafi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## MÜNDƏRİCAT

Yazılı dastan abidəsi “Bəxtiyarnamə” . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3
Bəxtiyarnamə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 9



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

BƏXTİYARNAMƏ



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bakı - 2002

Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 5 dekabr 2001-ci il tarixli 11 №-li iclasının qərarı ilə nəşr edilir.

Nəşrə hazırlayan və ön sözün müəllifi: Əli Məmmədbağıroğlu,
filologiya elmləri namizədi

Redaktoru: Paşa Kərimov,
filologiya elmləri namizədi

Kompüter icraçıları: İradə İsayeva,
Suad Əhmədov



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

«Bəxtiyarnamə» Şərq xalqları arasında geniş yayılmış dastanlardan biridir. Dastanın Azərbaycan-türk dilində XIX yüzillikdə yazıya köçürülmüş hələ ki yeganə hesab olunan nüsxəsi Əlyazmalar İnstitutunun xəzinəsində saxlanılır. Kökü qədim dövrlərə gedib çıxan abidə mövzusuna və yazıya köçürüldüyü dövrün canlı danışıq xüsusiyyətlərini özündə əks etdirməsinə görə əhəmiyyət kəsb edir.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

BƏXTİYARNAMƏ

(YAZILI DASTAN ABİDƏSİ)



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Created by Neevia Personal Converter trial version http://www.neevia.com